## Alimlər: "Qripə qarşı peyvənd koronavirusa yoluxma riskini azaldır"



**Niderlandın Radbaud Universitetinin Tibb Mərkəzinin alimləri qripə qarşı peyvənd olunanların koronavirusa yoluxma ehtimalının 47%, ikinci dalğada isə 50% daha az olduğunu aşkar ediblər.**

"Report" xəbər verir ki, tədqiqatın nəticələri "medRxiv" nəşrində dərc edilib.

Mütəxəssislər qrip peyvəndinin müəyyən dərəcədə koronavirusdan qoruduğuna inanırlar.

*Qeyd edək ki, pandemiyanın ilk dalğası zamanı alimlər Niderlandda xəstəxana işçiləri arasında araşdırma aparıblar və qrip əleyhinə peyvənd olunanlar arasında koronavirusa yoluxma riskinin digərlərinə nisbətən 47% aşağı olduğunu sübut ediblər.*

## Gülə-gülə, Yaqub bəy!

Bəlkə bir gün arzularınız gerçək olar



Hamı "Ayrılıq"la-bölünmüş Vətənin həsrət nəğməsi ilə yad etdi onu. Mənim isə ilk ağlıma gələn "Dəniz" mahnısı oldu. Nə vaxt qəmgin olsam, bir az üzülsəm dinləyirdim, elə pozitiv enerji ötürdü ki... İndi mahnının ifaçısının dünyadan köçdüyünə inana bilmirəm. Axı hər zaman gülərüz, həyatdolu adam necə bir xəstəliyə məğlub ola bilər? Amma təəssüf ki, o da koronaya yenildi.

(səh.7)



## Gorus-Qafan yolu ilə Azərbaycan ərazisinə qanunsuz keçən iranlı sürücülər saxlanılıb

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyi açıqlama yayıb

**Erməni mətbuatında Gorus-Qafan avtomobil yolunda İrandan gələn iki yük maşınının sürücüsünün Azərbaycan polisləri tərəfindən saxlanılması ilə bağlı məlumatlar yayılıb.**

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin rəisi, Ehsan Zahidov açıqlamasında bildirib ki, saxlanılan sürücülər qanunsuz yollarla Azərbaycan ərazisinə daxil olublar: "Ermənistandan qanunsuz yollarla Azərbaycan ərazisinə keçən avtomobillər Daxili İşlər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən müəyyən edilərək saxlanılıb".

O bildirib ki, həmin avtomobillərin sürücüləri barəsində Azərbaycan Respublikasının qanunlarına uyğun müvafiq tədbirlər görüləcək.


❒ № 167 (5448), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 16 sentyabr 2021-ci il (cümə axşamı)




## Prezident yarımstansiyanın açılışında iştirak edib

Dövlət başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib.**

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov Prezident İlham Əliyevə yarımstansiyada görülən işlər barədə məlumat verib.

(səh.2)

# Bakı Türkün göz bəbəyi

## Şanlı tarix heç vaxt unudulmayacaq






**Dünən Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 103-cü ildönümü münasibətilə paytaxt küçələrində "Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır" devizi altında hərbi orkestrlərin müşayiəti ilə hərbçilərin yürüşü keçirilib. Yürüş iki istiqamətdə - Şəhidlər Xiyabanı və 28 may küçəsindəki Səməd Vurğun bağından start götürüb. Azərbaycan Silahlı Qüvvələrinin yürüşə qatılan bir neçə generalı Şəhidlər Xiyabanını və Türk Şəhidliyini ziyarət edərək, əklil qoyublar.**

Hərbi qulluqçular çiyinlərində Azərbaycan və Türkiyənin dövlət bayraqlarını daşıyıblar. Yürüşdə hərbi orkestrin müşayiəti ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 150 nəfər şəxsi heyəti iştirak edib. Yürüşlər paytaxtdan əlavə Naxçıvan, Gəncə, Sumqayıt və Şuşa şəhərlərinin mərkəzi küçələrində

## 103 il sonra Türkiyə yenə Bakıya salam və sevgilərini çatdırdı

də keçirilib. Xatırladaq ki, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Bununla da həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi - Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Belə vəziyyətdə isə Azərbaycanın dövlət müstəqilliyi təsəvvür oluna bilməzdi. Müstəqilliyə təzə qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlətimizin ərazi bütövlüyünü təmin etmək imkanları hələ yetərincə deyildi. Özünün ağır durumuna rəğmən, Osmanlı Türkiyəsi qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunu Azərbaycana göndərdi.

(səh.3)







## Mehriban Əliyeva Bilik günü ilə bağlı paylaşım edib




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 15 Sentyabr - Bilik günü münasibətilə paylaşım edib.**

*Paylaşımda deyilir:*

"Əziz məktəblilər və tələbələr!

Sizi Bilik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Qoy yeni tədris ili parlaq, yaddaqalan, səmərəli olsun və sizə çoxlu bilik, uğur və nailiyyətlər gətirsin! Sizin zəruri bilik və vərdişlər qazanmağınıza, istedad və qabiliyyətinizi inkişaf etdirməyinizə kömək göstərən bütün müəllimlərə təşəkkürümü bildirirəm! Hər birinizə möhkəm cansağlığı, gümrahlıq, tükənməz enerji, əzmkarlıq, gözəl əhval-ruhiyyə və əla qiymətlər arzulayıram!"

## Paşinyan Bakını dəstəklədi



### Azərbaycan polisinin iranlı sürücüləri yoxlaması qanunidir

**"2020-ci ilin dekabrında Ermənistan Silahlı Qüvvələri Sovet Ermənistanının sərhədlərinə çəkilib. Bu addım yeni hərbi gərginlikdən qaçmaq üçün atılıb".**

"Report" "Sputnik Armeniya"ya istinadən xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Gorus-Qafan avtomobil yolunun Azərbaycan ərazisindən keçən hissəsində İrana məxsus yük maşınlarının Azərbaycan polisi tərəfindən yoxlanılması ilə bağlı sualı cavablandırarkən deyib.

Onun sözlərinə görə, bununla da sovetdən qalma inzibati sərhəd dövlət sərhədinə çevrilib: "Gorus-Qafan avtomobil yolu iki yerdə Ermənistan Respublikası və ya Sovet Ermənistanı ərazisindən çıxır. Məhz buna görə də məlum rayonlarda hamının gördüyü lövhələr quraşdırılıb və dayaq məntəqəsi yaradılıb".

N.Paşinyan bildirib ki, 2020-ci ilin dekabrında bu yoldan nəqliyyat vasitələrinin tranziti kimi istifadə edilməsinə dair razılıq əldə olunub: "Razılaşmanın mətnində xarici ölkələrə məxsus yüklərin daşınması nəzərdə tutulmadığından, ehtimal edirəm ki, bu şəraitdə Azərbaycan tərəfi həmin məqamdan istifadə edir".

## Həkimdən xəbərdarlıq

Uşaqlar yoluxduqdan sonra yeni sindrom yarana bilər



**"Pandemiya dövründə tədrisin necə təşkil olunması ilə bağlı Səhiyyə Nazirliyinin qaydaları var".**

Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov deyib.

O bildirib ki, valideynlər hər gün övladları ilə söhbət etməlidirlər:

"Övladının səhhətində problem olan valideyn onu məktəbə göndərməməlidir. Delta ştamının sürətlə yayıldığını nəzərə alaraq, ailədaxili yoluxma halları müşahidə oluna bilər. Odur ki, valideyn evdə övladının bədən hərarətini mütəmadi yoxlamalıdır".

**T.Eyvazov xatırladıb ki, bəzi uşaqlarda infeksiyaya yoluxduqdan sonra yeni sindrom yarana bilər:**

"Yoluxma halları uşaqlar arasında adətən ağırlaşma səbəb olmur. Məktəblərin açılması kütləviliyin olması deməkdir. Uşaqların yoluxmaması üçün bütün lazımi addımlar atılmalıdır".

## Sabiq icra başçısının gözləri tutuldu

Şəmsəddin Xanbabayev əməliyyat olundu



**Xaçmaz Rayon İcra Hakimiyyətinin sabiq başçısı, YAP rayon təşkilatının sədri Şəmsəddin Xanbabayevin gözləri tutulub.**

Qaynarinfo xəbər verir ki, sabiq icra başçısı Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə yerləşdirilərək, əməliyyata olunub. Məsələ ilə bağlı açıqlama verən Şəmsəddin Xanbabayev bildirib ki, dünən xəstəxanadan evə buraxılıb: "Gözlərimi mirvari suyu ilə tutuldu. Həkimlərin səyi nəticəsində görmə qabiliyyətim nisbətən bərpa olundu. İnşallah tədricən, müalicələrlə düzələcəm".

## Daha 2 064 nəfər koronavirusa yoluxub

28 nəfər ölüb, 3 831 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 064 yeni yoluxma faktı qeydə alınıb, 3 831 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 28 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 465 390 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 420 025 nəfər müalicə olunaraq sağalıb, 6 195 nəfər vəfat edib, aktiv xəstə sayı 39 170 nəfərdir.



# Prezident yarımstansiyanın açılışında iştirak edib

## Dövlət başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib.**

**"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov Prezident İlham Əliyevə yarımstansiyada görülən işlər barədə məlumat verib.**

Dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinliklərinə baxmayaraq, dövlət başçısının birbaşa diqqəti sayəsində ölkəmizdə çox mühüm sosial infrastruktur layihələri uğurla və ardıcıl şəkildə icra olunur. Bu layihələr arasında respublikanın bütün şəhər və rayonlarının, o cümlədən paytaxtın elektrik təsərrüfatının müasirləşdirilməsi istiqamətində həyata keçirilən silsilə və kompleks yenidənqurma tədbirlərinin xüsusi əhəmiyyəti var. Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən bu layihələr, ilk növbədə, insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına, onların rahatlığının təmin edilməsinə, sosial məsələlərinin həllinə yönəlib. Bu, eyni zamanda, elektrik enerjisinə tələbatın ödənilməsi, elektrik şəbəkələrində yüklənmələrin azalması, texniki itkilərin minimuma endirilməsi baxımından da çox önəmlidir.

Hazırda dövlət proqramlarının icrası ilə bağlı Bakı şəhərinin elektrik təchizatının daha da yaxşılaşdırılması üçün genişmiqyaslı tikinti, yenidənqurma və təmir işləri aparılır. Bu işlərin davamı olaraq, Xəzər rayonu ərazisində "Buzovna-1" yarımstansiyası tikilib. Yeni yarımstansiya artan tələbatı ödəməklə, Buzovna, Zuğulba, Albalılıq, Bilgəh, Nardaran, Maştağa qəsəbələrinin, dövlət əhəmiyyətli obyektlərin, həmçinin istirahət, turizm, tibb obyektlərinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsində böyük rol oynayacaq.

Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub, ən müasir qurğular və avtomatika sistemi ilə təchiz edilib. Ümumilikdə, "Azərişıq" ASC tərəfindən yeni inşa olunan qapalı tipli yarımstansiyalarda texniki və texnoloji yeniliklərə xüsusi diqqət verilir. Paytaxtın digər ərazilərində 110, 35 və 0,4 kilovoltluq ötürücü xətlər kabellə yeraltı borular və tunellər vasitəsilə çəkilib ki, bunların istismar müddəti baxımından etibarlılığı 2-3 dəfə çoxdur.

Prezident İlham Əliyev "Buzovna-1" yarımstansiyasını işə salıb.

Dövlət başçısına işğaldan azad olunmuş ərazilərdə "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən "Ağıllı şəbəkə konsepsiyası" əsasında görülmüş işlər barədə də məlumat verilib.

Bildirilib ki, Şuşa şəhəri və Suqovuşan qəsəbəsinin elektrik təchizatının təmin edilməsində ilk dəfə müasir tipli mühafizəli və izolyasiyalı kabel xətti, paylayıcı şəbəkə modeli tətbiq olunub. Ümumilikdə, işğaldan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təchizatında innovativ texnologiyaların tətbiqi uğurla davam etdirilir. Belə ki, müasir tip mühafizəli və izolyasiyalı kabel xətlərinin texniki-iqtisadi səmərəliyini artırmaq məqsədilə yeni fiber-optik kanalla təchiz edilmiş mühafizəli kabellərin tətbiqi nəzərdə tutulub. Bununla da həm elektrik enerjisi, həm də keyfiyyətli internet şəbəkəsinin ötürülməsi mümkündür. Beləliklə, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edən yüksəksürətli internet şəbəkəsinin yaradılması üçün əlavə infrastrukturun qurulmasına ehtiyac qalmır və iqtisadi səmərəlilik göstəriciləri yüksəlir. Digər tərəfdən hər bir abonentin bir kabel xətti ilə həm elektrik enerjisi, həm də dayanıqlı və yüksəksürətli optik kanalla internet və rabitə xətlərinə çıxışı olacaq.

İşğaldan azad edilmiş ərazilərdə "ağıllı şəbəkə" konsepsiyası üzrə müasir, daha dayanıqlı ikipilləli 110/35 kilovoltluq şəbəkələrin iqtisadi əsaslandırması həyata keçirilib. Ənənəvi şəbəkələrlə müqayisədə bu tip şəbəkələrdə elektrik təchizat sxemi sadələşir, etibarlılıq və rentabellik dəfələrlə artır, 6 ilədək tikinti müddətinə, layihələndirmə və sənədləşdirmə vaxtına, 60 min hektardan çox faydalı torpaq sahəsinə qənaət edilir. Müasir şüşə lifli, kompozit materialdan hazırlanmış dayaqlar quraşdırılır ki, onlar da sərt iqlim və istismar şəraitinə dözümlü olmaqla yanaşı, daha az xərc tələb edir. Beləliklə, müasir texnologiyaların tətbiqi nəticəsində elektrik təchizatı şəbəkəsinin dayanıqlığı artırılaraq böyük miqdarda maliyyə vəsaitinə qənaət olunacaq.

*Dövlət başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.*

## Azərbaycanın Aİ yanında Nümayəndəliyinə yeni başçısı təyin olunub

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri V.İ.Sadıqovun eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri Vaqif İsmayıl oğlu Sadıqov eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı (Aİ) yanında Nümayəndəliyinin başçısı təyin edilib.

## Azərbaycan, Türkiyə və Pakistan xüsusi təyinatlılarının təlimi davam edir



**Azərbaycan, Türkiyə və Pakistanın Xüsusi Təyinatlı Qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş - 2021" beynəlxalq təlimi davam edir.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, təlimin növbəti mərhələsində Xüsusi Təyinatlı bölmələr şərti düşmənin arxasına quru, hava, su yolu ilə keçid, pusqu, basqın, eləcə də amfibiya və hava desant hazırlığı üzrə məşğələlərdə səmərəli təcrübə mübadiləsi etməklə yanaşı, həmdə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

# İcra başçıları əməkhaqqına qane olub, xalqa xidmət etməlidir

"Əqidəsi düzgün olan adam vəzifəsini qanun çərçivəsində icra etməli, pis yollara düşməməlidir"



Elman Məmmədov:

**Bu yaxınlarda Ağstafa rayonunun sabiq icra başçısı Nizaməddin Quliyev dünyasını dəyişib. O, həbsxanada koronavirusdan vəfat edib. Dünən isə Biləsuvar rayonunun sabiq icra başçısı Mahir Quliyevin koronavirusa yoluxduğu qeyd edildi. Bu barədə onun vəkili məlumat verib.**

Vəkil bildirib ki, M.Quliyevin vəziyyəti ağırlaşdığından onu Dövlət Gömrük Komitəsinin İxtisaslaşmış Hospitalına köçürüblər.

Eyni zamanda Yevlax Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədov həbsdən buraxılıb. Onun vəkili Elnur Vəliyev bildirib ki, bir müddət əvvəl sabiq icra başçısının vəziyyəti pisləşib və o, Bakı şəhərində Mərkəzi Klinikaya yerləşdirilib. Ötən gün isə həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatət verilib.

Şəki Ağır Cinayətlər Məhkəməsi vəsatəti təmin edib və sabiq icra başçısı barədə başqa yerə getməmək barədə iltizam tədbiri seçilib.

Əslində korrupsiya və rüşvətə qurşanan, xalqa xidmət əvəzinə şəxsi mənafelərini güdən icra başçılarının bu cür tale ilə üzləşmələri gözlənilən idi. Ancaq bu durumun digər məmurlara dərs olduğunu söyləmək bir az çətindir.

**Məsələ ilə bağlı "Şərq"ə danışan millət vəkili Elman Məmmədov qeyd edib ki, cənab Prezident hər dəfə icra başçılarını vəzifəyə təyin edərkən onlara öz xəbərdarlıqlarını edir:** "Ölkə başçısı həmişə yeni icra başçılarına nəticə çıxarmalı olduqlarını söyləyir. Səhv yola düşən, vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyənlər, rüşvət və korrupsiyaya qurşananların aqibəti həbsdə olan sabiq icra başçılarının aqibəti kimi olur. Kimsə varlanmaqdan ötrü vəzifəsindən sui-istifadə edirsə, onu yaxşı tale gözləmir. Ona görə də deyilənlərdən nəticə çıxarmaq lazımdır. Təbii ki, cənab Prezident tələb və tapşırıqlarını verir, tövsiyələrini bildirir. Eyni zamanda vəzifəyə yeni təyin olunan insan cəmiyyətdə baş verənlərdən, özündən əvvəlkilərin tutduğu yolda başına gələnlərdən nəticə çıxarmalıdır. Sağlam düşüncəli, tərbiyə və əqidəsi düzgün olan adam vəzifəsini qanun çərçivəsində icra etməli, pis yollara düşməməlidir. İşdən biabırçılıqla qovulmaq, el-oba və cəmiyyətdə biabır olub həbsə düşmək, övladlarının gələcəyini təhlükə altında qoymaq istəmirlərsə, dövlətin verdiyi maaşa qane olub xalqa xidmət etməlidirlər".

**Yeganə Bayramova**

# Ermənistan hökuməti Türkiyə ilə dialoqa hazırdır

## Paşinyan qeyd edib ki, əgər dialoq başlayacaqsa, Ermənistan hökuməti təbii olaraq bu barədə vətəndaşlarını məlumatlandırmalıdır

**Ermənistan hökuməti Türkiyədən dialoqun qurulması ilə bağlı gələn siqnalları müzakirə etməyə hazırdır. APA-nın "Sputnik Armenia"ya istinadən verdiyi xəbərə görə, bu barədə bu gün Nikol Paşinyan parlamentdə deputat Sarkis Xandanyanın sualını cavablandırarkən deyib.**

Baş nazirin sözlərinə görə, artıq bir sıra beynəlxalq tərəfdaşlar İrəvan və Ankara arasında dialoqun qurulmasına yardım etməyə hazır olduqlarını bəyan edib.

N. Paşinyan qeyd edib ki, əgər dialoq başlayacaqsa, Ermənistan hökuməti təbii olaraq bu barədə vətəndaşlarını məlumatlandırmalıdır.

*Xatırladaq ki, bundan əvvəl də N. Paşinyan Ermənistanın regionda sülhün bərqərar olması üçün Türkiyə tərəfindən bəzi müsbət siqnallar aldığını bildirib. O əlavə edib ki, onlar bu siqnalları qiymətləndirəcək, müsbət siqnallara müsbət siqnallarla cavab verəcəklər.*



# Yenə rəsmi Bakının səbrini sınayırlar

## Yücel Karaüz: "Ancaq Azərbaycan-Türkiyə qardaşlığının öhdəsindən gələ bilməyəcəyi heç bir problem yoxdur"



**Türkiyənin Konya şəhərində keçirilən "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimlərində Azərbaycan və Türkiyənin hərbi təyyarələri müxtəlif epizodlar üzrə döyüş uçuşları həyata keçiriblər. Təlimin planına əsasən şərti düşmənin qırıcı aviasiyasının hücumunu dəf etmək, hava hücumundan müdafiə vasitələrindən aldadıcı manevrlərlə yayınmaq və yerüstü hədəflərə zərbələr endirmək tapşırıqları yerinə yetirilib.**

İsmayıl Qocayev

Qarşıya qoyulan döyüş tapşırıqları hər iki ölkənin hərbi pilotları tərəfindən uğurla icra olunub. Açılış mərasimində Türkiyənin Milli müdafiə naziri Hulusi Akar və Azərbaycanın Müdafiə naziri Zakir Həsənov da iştirak ediblər. Akar son günlər revanşist bəyanatlar səsləndirən Ermənistana xəbərdarlıq edib. Nazir bildirib ki, Türkiyə və Azərbaycan prezidentlərinin Ermənistana uzatdıqları sülh təklifinə qarşılıq verilməsi çox əhəmiyyətlidir. H.Akar vurğulayıb ki, tam müsbət cavab olmasa da, bəzi əlamətlər var: "Məqsədimiz tərəflərin sülh və təhlükəsiz şəraitdə yaşamasıdır. Ermənistan atəşkəsə riayət etməli, hər hansı səhvə yol verməməlidir. Eyni zamanda, regionda atəşkəsin davamlı olması və sabitliyin təmin olunmasını da vacib hesab edirik". Akar qeyd edib ki, region özünün həssas dövrünü yaşayır: "Prosesləri yaxından izləyirik. Türkiyə bütün qonşularının ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşır. Kiminsə ərazisini ilhaq etmək kimi niyyətimiz əsla müzakirə mövzusu ola bilməz. Ancaq digər tərəfdən də quruda, dənizdə və havada heç bir şəkildə nə özümüzün, nə də dost və qardaşlarımızın haqqının, hüququnun tapdanmasına icazə verərik". Nazirin sözlərinə görə, Türkiyə və Azərbaycanın birgə uğurlu hərbi təlimləri düşmənləri qorxuya salır, dost və qardaşları həyəcanlandırır. Bir daha qeyd edirəm ki, Azərbaycana qarşı təhdidləri özümüzə qarşı təhdid sayırıq".

Azərbaycanın Müdafiə naziri Zakir Həsənov bəyan edib ki, son dövrlər keçirilən təlimlər nəticəsində Azərbaycan ordusu böyük təcrübə qazanıb. Onun sözlərinə görə, iki ölkə arasında keçirilən təlimlər bundan sonra da davam edəcək: "Azərbaycan işğal altındakı torpaqlarını azad etmək üçün başlatdığı əməliyyatlar zamanı daim Türkiyənin dəstəyini görüb. Müharibə vaxtı Türkiyə Prezidenti, Türkiyə Milli müdafiə naziri və digər yüksək vəzifəli şəxslər Azərbaycana siyasi, mənəvi və diplomatik dəstək veriblər. Onların bəyanatları Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu, Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığın bütün dünyaya göstərib. Türkiyə kimi qardaşımızın yanımızda olması bizə güc verir. Azərbaycan xalqı Türkiyənin dəstəyini yüksək qiymətləndirir. Türkiyə tərəfindən göstərilən dəstəyə dərin təşəkkürümü bildirirəm".

Məlumat üçün bildirək ki, Türkiyədə səfərdə olan Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Baş Qərargah rəisi Kərim Vəliyev Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən də qəbul edilib. Görüşün mətbuata qapalı keçirildiyi bildirilir. Generalitetin qardaş ölkəyə səfərləri 4 türk generalın Türkiyə Silahlı Qüvvələrini Azərbaycanda təmsil edən Xüsusi Komandanlığa təyin edilməsindən sonraya təsadüf edir. Xüsusi Komandanlıq Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərsə də, bugünə qədər daha aşağı rütbəli zabitlərlə təmsil olunduğu deyilir.

**Türkiyənin Azərbaycandakı səfirliyinin keçmiş hərbi attaşesi, təqaüddə olan general-mayor Yücel Karaüz "Şərq"ə açıqlamasında ilk növbədə Bakının işğaldan azad edildiyi 15 sentyabr günü münasibəti ilə Azərbaycan xalqını təbrik etdiyini deyib.** Karaüz Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa başda olmaqla düşmənlə mübarizədə şəhid olmuş qəhrəman Anadolu və Azərbaycan türklərinin ölməz ruhlarını rəhmət və minnət duyğusu ilə yad etdiyini söyləyib. Generalın sözlərinə görə, məhz həmin fədakar qəhrəmanların sayəsində Xəzərin sahilində güclü və müasir Azərbaycan dövləti yaranıb. Şuşa Bəyannaməsi kimi mötəbər bir sənəd imzalanıb: "Vətən müharibəsindən sonra daha gərgin proseslərin yaşanacağını vurğulamışdıq. Əfsuslar olsun ki, Ermənistan və onun havadarları 10 noyabr üçtərəfli anlaşmasının müddəalarına əməl etmirlər. Əlavə zaman qazanmaq, əldə edilən böyük qələbənin uğurlu nəticələrini mümkün qədər yubatmaq üçün əllərindən gələni edirlər. Ancaq bir şeyi unudurlar ki, 44 günlük savaş zamanı Azərbaycanın yanında duran Türkiyə daha qətiyyətli şəkildə öz qardaşları ilə birlikdədir. Azərbaycan-Türkiyə qardaşlığının öhdəsindən gələ bilməyəcəyi heç bir problem yoxdur. İki dövlətdə vəzifə başına gələn yüksək rütbəli hərbçilər qardaşlıq jesti olaraq ilk ziyarətlərini Ankara və Bakıya edirlər. Son günlər ərzində Azərbaycan və Türkiyə generalitetinin nümayiş etdirdiyi qardaşlıq mənzərəsini 27 sentyabrdan əvvəl də bir neçə dəfə görmüşük. İki ölkənin hərbi sahədə əməkdaşlığı, müttəfiqliyi Şuşa Bəyannaməsi ilə taclandırıldı, ən üst səviyyəyə qalxdı. Ankara-Bakı tandemi bütün dünyaya mesaj verir ki, Azərbaycan və Türkiyənin Cənubi Qafqazda qalıcı sülh üçün daha 28 il gözləmək niyyəti yoxdur. Hər kəs Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərməlidir. Ermənistan isə öz təxribatlarından dərhal vaz keçməlidir. Qayəmiz bölgədə barış və əməkdaşlığa nail olmaqdır və buna nail olmaq üçün əlimizdən gələni əsirgəməyəcəyik".



"Ankara-Bakı tandemi bütün dünyaya mesaj verir ki, Azərbaycan və Türkiyənin Cənubi Qafqazda qalıcı sülh üçün daha 28 il gözləmək niyyəti yoxdur"

**General vurğulayıb ki, Rusiya və başqa ölkələr Ermənistanı yenidən silahlandırmağa cəhd göstərir. Ermənistanın Azərbaycanla sərhəddə təxribatlarına göz yumulur:** "Yenə rəsmi Bakının səbri sınanır, qardaş ölkənin ərazi bütövlüyünə hörmətsizlik göstərilir. Əgər İrəvan atəşkəs razılaşmasını sülh anlaşmasına çevirmək istəyirsə, ilk növbədə Azərbaycanın şərtlərinə qeyd-şərtsiz əməl etməlidir. Ondan sonra Türkiyə Ermənistana lazımlı yardımları edəcək, əməkdaşlıq üçün şans verəcək. Əks halda heç bir məsələdə irəliləyiş olmayacaq və düşmən layiqli cavabını alacaq. Bu qərarlılıq Azərbaycan və Türkiyənin ortaq mövqeyidir. Gücümüz birliyimizdədir".

# 103 il sonra Türkiyə yenə Bakıya salam və sevgilərini çatdırdı







# Bakı Türkün göz bəbəyi...

## Şanlı tarix heç vaxt unudulmayacaq

İsmayıl Qocayev

**Dünən Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 103-cü ildönümü münasibətilə paytaxt küçələrində ”Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır” devizi altında hərbi orkestrlərin müşayiəti ilə hərbçilərin yürüşü keçirilib. Yürüş iki istiqamətdə - Şəhidlər Xiyabanı və 28 may küçəsindəki Səməd Vurğun bağından start götürüb. Azərbaycan Silahlı Qüvvələrinin yürüşə qatılan bir neçə generalı Şəhidlər Xiyabanını və Türk Şəhidliyini ziyarət edərək, əklil qoyublar.**



Hərbi qulluqçular çiyinlərində Azərbaycan və Türkiyənin dövlət bayraqlarını daşıyıblar. Yürüşdə hərbi orkestrin müşayiəti ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 150 nəfər şəxsi heyəti iştirak edib. Yürüşlər paytaxtdan əlavə Naxçıvan, Gəncə, Sumqayıt və Şuşa şəhərlərinin mərkəzi küçələrində də keçirilib. Xatırladaq ki, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Bununla da həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi - Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Belə vəziyyətdə isə Azərbaycanın dövlət müstəqilliyi təsəvvür oluna bilməzdi. Müstəqilliyə təzə qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlətimizin ərazi bütövlüyünü təmin etmək imkanları hələ yetərincə deyildi. Özünün ağır durumuna rəğmən, Osmanlı Türkiyəsi qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunu Azərbaycana göndərdi. Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə baxmayaraq, qardaş köməyini əsirgəməyən Osmanlı Türkiyəsi 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Sentyabrın 15-də Qafqaz İslam Ordusu qarşısına qoyulan missiyanı uğurla başa çatdırmaqla Bakını işğalçılardan təmizlədi və Azərbaycan dövlətçiliyinə qardaş töhfəsini verdi. Qəhrəman türk əsgərlərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi. Bununla da 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara və özbaşınalığa son qoyuldu. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürüldü. Aradan uzun illər keçməsinə baxmayaraq, Qafqaz İslam Ordusu tərəfindən göstərilən qardaşlıq köməyi heç vaxt unudulmayacaq, Azərbaycan xalqı tərəfindən daim minnətdarlıq hissi ilə xatırlanacaq.

Türkiyə rəhbərliyi başda olmaqla digər rəsmilər də Bakının azad edilməsi münasibəti ilə Azərbaycan xalqına təbriklər ünvanlayıblar.

**Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan xalqına salam və sevgilərini çatdırıb:** ”Dost və qardaş Azərbaycanın paytaxtı Bakının işğaldan qurtuluş ildönümünü ürəkdən təbrik edir, Qafqaz İslam Ordusunun Komandanı Nuru Paşanı və qəhrəman əsgərlərini rəhmətlə anıram”.

Prezidentin sözçüsü İbrahim Kalın da ”Twitter”də bildirib ki, bir əsr sonra eyni ruh və əzm Qarabağı da azad etdi: ”Türkiyə-Azərbaycan qardaşlığı əbədi olacaq”.

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu da xatırladıb ki, Bakının qurtuluşunun 103-cü ildönümündə artıq Qarabağ da azaddır: ”Əziz şəhidlərimizi rəhmətlə anıram. Ruhları şad olsun”. Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk 15 sentyabr gününü Azərbaycan xalqına aid ən şərəfli tarixlərdən biri adlandırıb: ”Qafqaz İslam Ordusu Bakının azad edilməsində böyük şücaətlər göstərib, onun tərkibində vuruşan yüzlərlə türk əsgəri şəhidlik zirvəsinə yüksəlib. Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir”.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı da sosial şəbəkədə 15 sentyabrı bu cür yad edib: ”Bu vacib gündə Qafqaz İslam Ordusunun müzəffər komandanı Nuru Paşanı, onun qəhrəman ordusunu və Qafqazın bağrında yatan minlərlə şəhidimizi rəhmətlə anırıq. Tək millət, iki dövlət”.

Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycan və Türkiyə Qafqazda yeni reallıqlar yaradıb: ”Bu gün çox əlamətdar bir gündür. 103 il əvvəl Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Azərbaycan Ordusu ilə Bakı şəhərini bolşevik-daşnak qüvvələrindən azad edib. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixi köklərə əsaslanır. Bakının işğaldan azad edilməsi zamanı 5 mindən çox türk əsgəri öz canını qurban verib. Bu hadisələr Azərbaycan xalqının yaddaşına həkk olunub. Azərbaycan xalqı hər zaman türk şəhidlərinin xatirəsini əziz tutur. Bakı Türk Şəhidliyi abidəsi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının bir rəmzidir. Bura xalqımızın ehtiramla yad etdiyi məkana çevrilib”.

**YAP sədrinin müavini qeyd edib ki, Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətlə inkişaf edir:** ”Bizim ortaq mədəniyyətimiz, dilimiz, dinimiz var. İki ölkə arasında dünyada analoqu olmayan münasibətlər sistemi qurulub. Bizim dostluq və qardaşlıq münasibətimiz 102 ildən sonra da təkrar olunub. Azərbaycanın haqq savaşında Türkiyə mənəvi və siyasi dəstək göstərib. Türkiyə Vətən müharibəsində Azərbaycanla bir olduğunu bütün dünyaya nümayiş etdirib. Bu gün Azərbaycan-Türkiyə münasibətləri müttəfiqlik zirvəsinə ucalıb. Azərbaycan və Türkiyə prezidentlərinin şəxsi münasibətləri, qardaşlığı bütün sahələrdə əməkdaşlığa, görülən işlərə öz töhfəsini verməkdədir. Hər iki ölkə başçısının iştirakı ilə imzalanan Şuşa Bəyannaməsindən sonra da görülən işlər göz qabağındadır”.

**Millət vəkili Ceyhun Məmmədov ”Şərq”ə bildirib ki, 1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixinə yazılan şanlı səhifələrdəndir:** ”Bu dostluq və qardaşlıq bu gün də uğurla davam etdirilir. Bu əlaqələrin inkişafında və möhkəmlənməsində Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müstəsna xidmətləri var. Azərbaycan həm ötən əsrin əvvəllərində, həm də Vətən müharibəsi zamanı Türkiyənin verdiyi dəstəyi heç zaman unutmayacaq. Türkiyə-Azərbaycan dostluğu sarsılmaz və əbədidir!”.

# "Laçın dəhlizi açıq qapı deyil"




**Azərbaycan-Rusiya-Ermənistan arasında üçtərəfli bəyannamənin imzalanmasından, az qala, bir il ötür.**

Amma sənəddə əksini tapmış şərtlər, o cümlədən Zəngəzur dəhlizinin açılması ilə bağlı bənd icra edilmir. Bu isə o deməkdir ki, razılaşmaya imza atan digər tərəflər - Moskva və İrəvan cığallıq edirlər. Amma əlbəttə, sonsuzadək belə davam edə bilməz. Çünki torpaqlarını işğaldan etmiş rəsmi Bakının Zəngəzur dəhlizi ilə bağlı mühüm planları var.

**Bu barədə ”Şərq”ə danışan keçmiş xarici işlər naziri Tofiq Zülfüqarovun fikrincə, düşmən məsələyə dekonstruktiv yanaşır:**

”Bunu müzakirə etmək hələ tezdir. Əvvəlcə bir çox məqamlar həllini tapmalı, o cümlədən oradan keçən dəmiryolu bərpa edilməlidir. Ümumiyyətlə isə baxışlar fərqlidir. Ermənistan Azərbaycanın mövqeyi və üçtərəfli bəyanatın şərti ilə razılaşmaq istəmir. Dediyim kimi, dəmiryolunun rekonstruksiyası çox vacibdir. Azərbaycan, Türkiyə, Rusiyanın Zəngəzur dəhlizinin açılmasında maraqlı olduğunu nəzərə alsaq, deməli, məsələ mütləq həllini tapmalıdır. Bu, vacibdir”.

**T.Zülfüqarovun sözlərinə görə, Azərbaycan Laçın dəhlizi ilə bağlı müvafiq addımlar atmalıdır:** ”Biz Laçın dəhlizinin təhlükəsizlik məqsədilə istifadəsinə qarşı deyilik. Amma oradan Qarabağa iranlılar, fransızlar...gedir. Bu, narahatedici məsələdir. Laçın dəhlizi açıq qapı deyil. Orada Azərbaycanın xidmət orqanları, o cümlədən gömrük xidməti fəaliyyətə başlamalıdır. Gedib-gələnə nəzarət edilməli, qeydiyyat aparılmalıdır. Biz Qarabağa xaricilərin istədikləri vaxt gedib-gəlməsi haqqında öhdəlik götürməmişik. Deməyim odur ki, Laçın və Zəngəzur dəhlizi məsələləri bir-birinə bağlıdır və mütləq həllini tapmalıdır”.

**Kənan**

**Nəsiman Yaqublu:**
“Qafqaz İslam Ordusu təkcə Bakını, Şuşanı yox, həm də Azərbaycan dövlətçiliyini xilas etdi”



**Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Bakıdakı Türk Şəhidliyi abidəsini ziyarət edib. Ziyarətdə generallar da olub. Onlar abidə önünə əklil qoyublar. Sonra Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib. Xatırladaq ki, Bakının işğalçı erməni-bolşevik birləşmələrindən azad olunmasından 103 il ötür.**

# “Bakı və Şuşa 103 il fərqlə, oxşar taktika ilə azad olunub"

Kənan Novruzov

103 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Azərbaycan və türk əsgərləri Bakını bolşevik-daşnak işğalından azad edərək Azərbaycan dövlətinin tarixinə şərəfli gün yazırlar. Bununla da müstəqilliyini təmin edən Azərbaycanda ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyuldu. Türkiyə qoşunları bu döyüşlərdə 1130 şəhid verib. Bu şərəfli və tarixi gün heç zaman azərbaycanlıların xatirindən çıxmayacaq, bu qəhrəmanlıq və qardaşlıq dastanı Azərbaycan xalqı nəsillərdən-nəsillərə ötürəcək. Qəhrəmanlıq dastanının məntiqi davamı 2020-ci ilin sentyabrın 27-də başlayıb noyabrın 10-da bitən Vətən müharibəsi idi. Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad etdi. Azərbaycana isə Türkiyə siyasi və mənəvi dəstək verdi. Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdilər. Bu gün əminliklə deyə bilərik ki, istər 1918-ci ildə, istər Birinci Qarabağ müharibəsində, istərsə də ondan sonra şəhid olanların hamısının intiqamı alınıb.

**BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu sözügedən tarixi hadisə barədə ”Şərq”ə danışıb. O bildirib ki, türk əsgərlərinin fədakarlığı unudulmamalıdır:**

Bu, tarixi əhəmiyyət daşıyan hadisədir. Bakı azad ediləndən sonra digər ərazilər, o cümlədən Xankəndi, Şuşa da düşməndən təmizləndi. Qafqaz İslam Ordusu təkcə Bakını, Şuşanı yox, həm də Azərbaycan dövlətçiliyini xilas etdi. Əgər proseslər belə cərəyan etməsəydi, Cümhuriyyət hökuməti Gəncədən kənara çıxa bilməyəcəkdi. Onu da deyim ki, Nuru Paşanın rəhbərliyi altında ilk hərbi keçid 1918-ci il sentyabrın 15-də, ikincisi 1919-cu ilin aprelində, üçüncüsü isə həmin ilin iyununda Xankəndi və Şuşada keçirildi”.

**N.Yaqublunun fikrincə, Qafqaz İslam Ordusunun ovaxtkı dəstəyi iki dövlət arasındakı qardaşlığın əsasını qoydu:**

”Üstündən yüz il keçməyinə rəğmən, biz həmin yardımın bəhrəsini görürük. Ötən il Şuşa azad ediləndə də qardaş dəstəyini hiss etdik. 1918-ci ildə Bakı, 2020-ci ildə Şuşa düşməndən təmizlənəndə eyni taktikadan istifadə olundu. Belə ki, Qafqaz İslam Ordusu soyuq silahlarla Bakıya daxil olmuşdu, ötən il də azərbaycanlılar sıldırım qayalarla Şuşaya çıxdılar. Bu gün Azərbaycanda 16-dək türk məzarlığı var. Vətəndaşlarımız tez-tez həmin məzarlıqları ziyarət edirlər. Bu, bir daha göstərir ki, torpaqlarımızın azadlığında vətənpərvər türk əsgərlərinin mühüm rolu olub”.



# Zəif, etibarsız hakimiyyət...

## Təkrar səhvin sonu uçurumdur

Kənan Novruzov

**Qətərin Baş nazirin müavini, Xarici işlər naziri Məhəmməd bin Abdel Rahman Al Tani bazar günü Kabilə gəlib. Bu barədə jurnalistlərə "Taliban" hərəkatının Qətər siyasi ofisinin rəsmi nümayəndəsi Məhəmməd Sohail Şahin məlumat verib. O, müvafiq suala belə cavab verib:**

"Bəli, təsdiqləyirəm". İkinci bir məlumata görə, tezliklə Əfqanıstan Kabil hava limanında Rusiya və Türkiyədən təyyarələri qəbul edəcək. Bu barədə mülki aviasiya departamentinin direktoru Maulavi Abdul Hadi Hamdar bəyan edib. "Son bir neçə gündə Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan, Qətər və Pakistandan uçuşlarımız olub, tezliklə Rusiya və Türkiyəyə reyslərə başlayacağıq", - deyə Hamdar bildirib.

Taliblərin yüksək rütbəli komandiri Vahidulla Haşimi isə bəyan edib ki, əfqanıstanlı qadınlar kişilərlə birlikdə işləməməlidirlər. Beləliklə, Əfqanıstandakı qadınlar dövlət idarələrində, banklarda, mediada, əksər şirkətlərdə işləmək imkanından məhrum olacaqlar. Haşiminin sözlərinə görə, hərəkat Qərbin etirazına baxmayaraq, şəriət və islam qanunları ilə bağlı baxışlarını tam şəkildə yerinə yetirməyə qərar verib. "Zərif cinsin nümayəndələri yalnız kişilərin olmadığı yerdə işləyə biləcək", - deyə o, bildirib. Haşimi, evdən kənarda qadınlarla kişi arasında əlaqələrin həkimə getmək kimi müəyyən şərtlərdə icazə veriləcəyini əlavə edib.

Bütün bunlar onu deməyə əsas verir ki, "Taliban" hakimiyyətini uzunmüddətli etməkdə israrlıdır.

**Əfqanıstandakı vəziyyət barədə "Şərq"ə danışan BDU-nun müəllimi, beynəlxalq məsələlər üzrə ekspert Sultan Zahidov qərarların gözlənilən olduğunu bildirib:** "İqtidara gələn istənilən qüvvə hakimiyyətini möhkəmləndirməyə çalışır. Məlum olduğu kimi, ölkədə sosial-iqtisadi vəziyyət ağırdır, xeyli narazılıq var. "Taliban"ın daxildə sabitlik, təkhakimiyyətlilik yaratmaq üçün belə tədbirlər görməsi təbiidir. Nəzərə almaq lazımdır ki, sözügedən radikal qruplaşma hələ ölkədə təkhakimiyyətliliyini tamamilə təmin edə bilməyib. Ona görə də "islahatlarla" xalqın heç olmasa, müəyyən hissəsinin inamını qazanmağa çalışır. Xarici siyasət baxımından Türkiyə, Qətər və Çinlə əlaqələr də təəccüblü deyil. Qətərlə "Taliban"ın əlaqələri həmişə yaxşı olub. Qətər bu qruplaşmanı tanıyan ilk dövlətlərdəndir. Hətta Qətərdə "Taliban"ın qeyri-rəsmi iqamətgahı yaradılmış və sonradan ABŞ-la danışıqlar həmin ofisdə baş tutmuşdu. Türkiyənin hazırkı xarici siyasətinə nəzər saldıqda isə Ankaranın islam ölkələri ilə probleminin olmadığını deyə bilərik. Əksinə, təmaslar daha da sürətlənir. Xüsusilə Əfqanıstandan keçən nəqliyyat-kommunikasiya dəhlizi qardaş ölkənin maraqları daxilindədir. Türkiyə "Taliban"a görə maraqlarının üstündən xətt çəkməz".

**S.Zahidov, həmçinin Rusiyanın "Taliban"a münasibətindən söz açıb:** "Hər bir dövlətin milli maraqları var. Kiçik dövlətlərdə bu, sərhəd təhlükəsizliyi ilə məhdudlaşır. Rusiya kimi daha böyük güclər isə həm də yaxın ətraflarında sabitliyin təmin olunmasında maraqlıdır. Bu mənada Əfqanıstandakı radikal islamizm Mərkəzi Asiyaya keçsə, çox güman, Moskvanın müdaxilə ehtimalı istisna deyil. Bu, KTMT-nin nizamnaməsinin səkkizinci maddəsi ilə də tənzimlənir. Amma unutmayaq ki, Rusiya SSRİ deyil. SSRİ Əfqanıstanda öz maraqlarına uyğun hakimiyyət yaratmaq naminə 1979-cu ildə ölkəyə müdaxilə etmişdi və bu, ona ucuz başa gəlməmişdi. Rusiyanın istədiyi isə sadəcə qonşu ərazilərdəki sabitlikdir. Fikrimcə, Kreml sələfinin səhvindən dərs çıxaracaq və ciddi səbəb olmadan Əfqanıstana girməyəcək".

*Ekspert, həmçinin dedi ki, "Taliban" hakimiyyətinin ilk dövründəki səhvlərdən nəticə çıxarmalıdır:* "Bildiyiniz kimi, "Taliban" 1996-2001-ci ildə də hakimiyyətdə idi. O zaman digər radikal qruplaşmalara, o cümlədən "Əl-Qaidə"yə sığınacaq verdi və bu, digər dövlətləri qıcıqlandırdı. Çünki kimsə regionda radikal islamizm tərəfdarı deyil. Bu, terrora rəvac vermək deməkdir. Məhz həmin səhvə görə "Taliban" hakimiyyətdə çox qala bilmədi. İndi hakimiyyətdə olanların böyük əksəriyyəti 1996-2001-ci illərdə də hökumətdə təmsil olunurdu. Çox güman, radikal qruplaşma fəaliyyət istiqamətində ciddi dəyişikliyin olmayacağı barədə mesaj verir. Daxildə də qruplaşmanın olduğunu yaddan çıxarmamalıyıq. Bu, hökuməti zəiflədə bilər. Ümumiyyətlə, "Taliban" uzunömürlü olmaq istəyirsə, gərək terroru himayə etməsin".

### "Taliban" ölkədə təkhakimiyyətliliyini tam təmin edə bilməyib"

# Ermənilərin son ümidi...

## Ölkə çökdüyünə görə hər fürsətdə terrora baş vuracaqlar, bundan vaz keçməyəcəklər

İsmayıl Qocayev



**"Monax" ləqəbli keçmiş erməni zabiti Artur Ayvazyan daha bir populist bəyanatla çıxış edib. O, Azərbaycana qarşı mübarizədə Ermənistanın yeganə çıxış yolunun terrorçu-diversiya qrupları yaratmaq olduğunu vurğulayıb. Qeyd edib ki, tarixə nəzər salsaq, bunun ermənilərin son ümidi olduğunu görərik:**

"Biz sonradan PKK ilə də hər hansı bir yolla razılaşa bilərik. Vəziyyət çox ciddidir, hər gün bir addım geri çəkilirik. Zəngəzuru, ümumiyyətlə, yaddan çıxarın, o, əlimizdən getdi. İndi İrəvanda hamı bir-birini ittiham etməklə məşğuldur".

Ekspertlərə görə, ermənilərdən Azərbaycana qarşı həmişə terror aktı gözləmək olar. Çünki erməni terror təşkilatları tarixin müxtəlif mərhələlərində qanlı cinayətlərə, kütləvi qırğınlara imza atıblar. 1988-ci ildən Azərbaycan ərazisində davamlı terror aktları törədiblər. "20 Yanvar" metrosunu partladıblar. ASALA terror təşkilatı isə xarici ölkələrdə Türkiyə diplomatlarını şəhid edib. Həmçinin, Qarabağda daşnakların, o cümlədən PKK və digər qüvvələrə bağlı terrorçuların olduğuna dair çoxsaylı faktlar aşkarlanıb. Lakin şübhə yox ki, ermənilər terrora əl atacağı təqdirdə, Azərbaycan həm Konstitusiyaya, həm də beynəlxalq hüquqa dayanaraq, Qarabağda antiterror əməliyyatına başlayacaq.

**Ayvazyanın iddiası ilə bağlı "Şərq"ə açıqlama verən "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov bildirib ki, ermənilərin terrorizmlə bağlı bəyanatları, addımları heç birimizi təəccübləndirmir. Analitikin fikrincə, erməni toplumu terrorla birlikdə xarakterizə olunur:** "Ermənilər tərəfindən yaradılan terror təşkilatlarının tarixi bir əsrdən çoxdur. Daşnaksütyün və Asala terror təşkilatlarının adı hamıya məlumdur. Həmçinin, PKK və sonradan ortaya çıxan "Ateşin çocukları" adlı təşkilatların da missiyasında ermənilərə dəstək mühüm yer tutur. Əsas məqam odur ki, ermənilərin terrorçuluq fəaliyyəti sadəcə Azərbaycana deyil, türk dünyasına qarşı yönəlib. Sirr deyil ki, ermənilərin terror aktlarının arxasında Qərb ölkələrinin, o cümlədən Rusiyanın izləri var. Bir çox çirkin kampaniyalarını məhz ermənilər vasitəsi ilə reallaşdırıblar".

**S.Hümbətov vurğulayıb ki, Ermənistanın terror fəaliyyəti dövlət səviyyəsindədir:** "Ölkəyə rəhbərlik etmiş Robert Koçaryan, Serj Sarkisyan kimi şəxslər azərbaycanlılara qarşı terror aktlarının, qanlı cinayətlərin, kütləvi qırğınların başında dayanıblar. Ayvazyan kimilərin sözündə reallıq odur ki, ermənilər hər fürsətdə terrora baş vuracaqlar və bundan vaz keçməyəcəklər. Ona görə də bu məsələdə səfərbər olmalı, atılan addımları daha düzgün analiz etməyi bacarmalıyıq".

### "Düşmən tərəfindən atılan addımları düzgün analiz etməliyik"

# Kreml Azərbaycanın qərarlarını nəzərə alacaq

## Rus hərbçilərin Qarabağdan çıxacağı ehtimalı yüksəkdir



Yeganə Bayramova

**Kreml Azərbaycan ordusunun Şuşadan sonra Xankəndinə enməsinin - Qarabağın tamamına nəzarət etməsinin qarşısını aldı. Qarabağda Rusiya hərbçilərinin yerləşdirilməsi böyük güzəştimiz idi.**

Rusiya hərbçiləri 10 noyabr bəyanatına riayət etməyərək səlahiyyətlərini aşır və faktiki erməni separatçılarını himayə edirlər. 9 ay ərzində artan təxribatlar da bundan xəbər verir. Bu sıraya Rusiya hərbçilərinin Laçın dəhlizində "təlimlər" keçirməsindən, bayraq qaldırmasından və bölgədə tikinti işləri aparmasından tutmuş İrandan gələn yüklərinin Qarabağa buraxılmasına qədər faktları aid etmək olar.

10 noyabr bəyanatına görə, Azərbaycan istəməsə 5 ildən sonra Rusiya hərbçiləri Qarabağı tərk etməlidirlər. Azərbaycan XİN-in bəyanatlarında və rəsmilərin açıqlamalarında "bölgədə müvəqqəti yerləşdirilən sülhməramlılar" ifadəsi işlənir.

Yəni rəsmi Bakı və Azərbaycan cəmiyyəti rusiyalı hərbçilərin müddətləri bitdikdən sonra Qarabağı tərk etməsini istəyir. Əlbəttə, bu asan başa gəlməyəcək, rusiyalı hərbçilər bölgəni tərk etməsin deyə bölgədə fərqli təxribatların reallaşacağı istisna deyil. Bütün hallarda dialoq şəraitində rusiyalı hərbçilərin bölgəni tərk etməsi əsas vəzifəmizdir. Bu, mümkündür.

**Mövzu barədə "Şərq"ə danışan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Rusiya-Azərbaycan münasibətləri tarixində Moskvanın Bakının qərarlarıyla hesablaşdığı durumların az olmadığını söyləyib:** "Rusiya 1990-cı illərin əvvəllərində Azərbaycanın Qərb şirkətləri ilə birgə Xəzərdə zəngin enerji yataqlarının istismarına mane olmaq istəyirdi. Bunun üçün Moskva Azərbaycana qarşı bütün təzyiq mexanizmlərini işə salmışdı. Rusiya Xarici İşlər Nazirliyi Azərbaycanı hətta BMT-yə şikayət etmişdi. Rusiyanın BMT-yə göndərdiyi şikayət məktubunda bu yazılırdı: "Rusiya Xəzər dənizində birtərəfli təşəbbüslərin əleyhinədir, qanunsuz sazişləri tanınmayacaq".

Buna baxmayaraq, Xəzərdəki yataqların istismarı məqsədilə Bakıda 1994-cü ilin sentyabrın 20 "Əsrin müqaviləsi" imzalandı. Rusiya dediyini etmədi və ya etmək istəmədi. Çünki "əsrin müqaviləsində" Rusiyanın "Lukoyl" şirkəti pay almışdı. Yəni öz şirkətinin iştirak etdiyi müqavilənin əleyhinə çıxmaq məntiqsiz olardı. Bununla rəsmi Bakı Kremli geri addım atmağa məcbur etdi".

**Analitikin sözlərinə görə, rəsmi Bakı ikinci dəfə Xəzərin statusu məsələsində Kremli əvvəlki mövqeyindən çəkindirdi:** "Kreml Xəzərin statusunun müəyyənləşdirilməsi məqsədilə aparılan danışıqlar zamanı da Qərb şirkətlərinin bölgəyə gəlişinin qarşısını almağa çalışırdı. Xəzərsahili ölkələrdən əsasən Azərbaycan buna qarşı çıxırdı və Kreml məcbur qalıb bu siyasətini də korrektə etdi.

Rusiya Xəzərdən çıxarılan neft və qazın dünya bazarlarına çatdırılması məsələsində də Azərbaycanın ortaya qoyduğu reallıqları qəbul etdi. Kreml Azərbaycanın Xəzərdən çıxardığı neft və qazın yalnız Rusiya üzərindən dünya bazarlarına nəql olunmasını istəyirdi. Rəsmi Bakı Rusiyanın təzyiqinin artacağını nəzərə alaraq "Əsrin müqaviləsi"ndən sonra Bakı-Novorosiysk kəmərini işə saldı. Rəsmi Bakı Kremli rahatlatdıqdan sonra Türkiyə və Qərb şirkətləri ilə birgə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisinə başladı və uğurla yekunlaşdırdı. Hazırda Azərbaycan nefti və qazı əsasən Türkiyə üzərindən dünya bazarlarına çatdırılır, Bakı-Novorosiysk kəməri isə ara-sıra işləyir.

Kreml Bakı-Tbilisi-Ceyhan boru xəttinin tikintisinə mane ola bilməsə də, təcili Tengiz-Novorosiysk kəmərini inşa etdi. Kremlin məqsədi Qazaxıstanın zəngin "Kaşaqan" yatağından çıxarılacaq neftin Rusiya ərazisindən nəqlini təmin etmək idi. Çünki Kreml ehtiyat edirdi ki, Qazaxıstan da öz neftini Bakı-Tbilisi-Ceyhan boru xətti ilə nəql edəcək. Qazaxıstan bu gün Rusiya marşrutundan (tələsik inşa edilən Tengiz-Novorosiysk kəmərində isə tez-tez qəzalar baş verir, neft Qara dənizə axıdılır) istifadə etsə də, Bakı-Tbilisi-Ceyhan boru kəmərindən də yararlanır. Moskvanın bu planı da alınmadı.

Növbədə Xəzərin dibi ilə qaz boru xəttinin tikintisi və Türkmənistan qazının Azərbaycan və Türkiyə üzərindən nəqli məsələsi gəlir.

Rusiya buna da etiraz edir, ancaq arqumenti yenə zəifdir, çünki özü Qara və Baltik dənizlərinin dibi ilə boru xətləri inşa edərək Türkiyə və Avropaya qaz nəql edir".

*E.Şahinoğlu vurğulayıb ki, Rusiyanın yaxın keçmişdə Azərbaycanın qərarları ilə hesablaşdığını nəzərə alaraq rəsmi Bakının bir başqa qərarını da nəzərə alacağını - hərbçilərini Qarabağdan çıxaracağı ehtimalı yüksəkdir:* "1990-cı illərin əvvəllərində Rusiyanın hərbi bazalarının Azərbaycandan çıxarılmasını təmin etmişiksə, bunu yenə təkrarlaya bilərik".



# Hakim elita mövqeyini daha da gücləndirəcək

## Rusiyada seçki yolu ilə dəyişiklik imkansızdır

İsmayıl Qocayev

**Rusiyanın Dövlət Dumasına 8-ci çağırış seçkiləri 17-19 sentyabrda keçiriləcək. Dumaya seçkilər hər beş ildən bir qarışıq seçki sistemlə keçirilir. 450 nəfərlik Dövlət Dumasının 225 deputatı proporsional, 225 deputatı isə majoritar sistemlə seçilir. Dumaya seçkilərlə eyni gündə Rusiyanın doqquz subyekti başçılarının birbaşa seçkiləri də keçiriləcək.**

Seçkidə 14 partiyanın mübarizə aparacağı bildirilib. Əslində, seçki sentyabrın 19-na təyin olunub. Ancaq ayın 17-si və 18-də də səsverməyə şərait yaradılacaq. Parlamentə düşmək üçün partiya etibarlı səslərin azı 5 faizini toplamalı, dairə üzrə namizəd nisbi səs çoxluğu əldə etməlidir. Seçki marafonuna qoşulan partiyaların 4-ü indiki Dövlət Dumasında təmsil olunan - Vahid Rusiya Partiyası, Kommunist Partiyası, Liberal Demokrat Partiyası, Ədalətli Rusiya Partiyasıdır. Rusiya Konstitusiyasına görə, baş naziri, baş nazirin müavinlərini və federal nazirləri prezidentin təqdimatı ilə Dövlət Duması təyin edir. Hakim Vahid Rusiya Partiyasına Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedyev liderlik edir. 1965-ci il təvəllüdlü Dmitri Medvedyev 2005-ci ilin noyabrından baş nazirin birinci müavini olub, daha sonra baş nazir kürsüsünə gətirilib. 2008-2012-ci illərdə Rusiya prezidenti postunu tutub, 2012-ci ildən 2020-ci il yanvarın 15-dək yenidən baş nazir olub. Hazırda prezident postunu Vladimir Putin tutur. O, ilk dəfə 2000-ci ildə prezident seçilib və ardıcıl üç seçkidə öz postunu qoruyub. Rusiya xarici kəşfiyyat xidməti bir neçə dəfə seçkilər zamanı xaricdən təxribatlar hazırlandığını bildirib. Kəşfiyyat xidməti vurğulayıb ki, Dövlət Dumasına keçiriləcək parlament seçkilərində təxribat olacağı ilə bağlı qurumun əlində məlumatlar var: "Hansı nöqtələrə zərbə hazırlandığını müəyyən etmişik". Qeyd edək ki, Azərbaycan Milli Məclisinin bir qrup deputatı - Mixail Zabelin, Nizami Səfərov, Fatma Yıldırım və Şahin Seyidzadə Rusiyadakı seçkiləri müşahidə edəcək. Deputatlar öncə seçkilərə hazırlığın səviyyəsi ilə maraqlanacaqlar. Səsvermə günü müxtəlif məntəqələrdə seçki prosesini müşahidə edəcək, vətəndaşların fəallığına, səsvermə prosesində seçicilərin hüquqlarının təmin olunmasına diqqət yetirəcək, səslərin hesablanması prosesini izləyəcəklər. Dövlət Dumasına seçkilərlə bağlı əksər ekspertlər ciddi nəticə dəyişikliyi gözləmilər.

**Şimal qonşumuzun seçki hazırlığını "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu deyib ki, Rusiya Dövlət Dumasına keçirilən seçkilərdə 4 partiyanın daha çox səs toplayacağını ehtimal etmək olar.** Analitikə görə, "Vahid Rusiya", "Liberal-Demokrat", "Kommunist" və "Ədalətli Rusiya" siyasi təşkilatları parlamentdə təmsilçilik hüququ qazanacaqlar. Rəy sorğularına görə, "Vahid Rusiya" 50 faizdən çox, kommunistlər 5 faiz, liberal demokratlar 10 faiz, "Ədalətli Rusiya" isə 8 faiz səs yığacaq. Bir sözlə, hakim partiya 450-dən çox səs alaraq, istədiyi qərarı keçirə biləcək. Kommunistlərin səsi bir qədər də çoxalacaq. Lakin onlar həlledici səsə malik olmayacaqlar. Yavlinski tərəfdarları bu dəfə də məğlub olacaqlar. Müxalif düşərgənin tanınmış simalarından Aleksey Navalnı tərəfdarlarının səsinin necə olacağı da bəlli deyil. Ehtimal ki, onlar seçkini boykot edəcəklər. Navalnı və Yavlinskinin birləşə bilməməsi müxalifəti daha da zəiflədəcək".

**A.Rəşidoğlunun qənaətincə, seçkilərin nəticəsində hakim elita mövqelərini daha da gücləndirəcək:** "Seçkidən sonra müxalifət etiraz edəcək, hakimiyyət isə amansızlıqla etirazı yatıracaq və bütün dünya seçkiləri tənqid edəcək. Lakin nəticələri tanıyacaqlar. Rusiyada seçki yolu ilə dəyişiklik imkansızdır. Bu ölkədə əsas söz sahibi hərbçilərdir və onlar hansı qüvvəni dəstəkləsələr, onlar da hakimiyyətə gələcək. Seçki prosesində ciddi təxribat gözləmirəm. Müəyyən mitinq və aksiyalar ola bilər, ancaq bunlar ciddi təsirə malik olmayacaq".

### "Bu ölkədə əsas söz sahibi hərbçilərdir və onlar hansı qüvvəni dəstəkləsələr, onlar da hakimiyyətə gələcək"

# "Ölürəm mən sənin "üç"ündən ötrü...”

## Verdiyin “beş”lərə naz eləyərlər”



**İşimiz şeirlədi son vaxtlar. Sosial şəbəkənin bu tərəfinə varam. Dostlar, tanıdıqlarımız maraqlı paylaşımlar edir, bizim üçün də yeni mövzu, yeni material olur. Ötən dəfə dəyərli şairimiz Akif Əhmədgil mərhum həyat yoldaşına ithaf etdiyi şeirini paylaşmışdı. Ardınca Qəşəm Nəcəfzadədən çox gözəl şeir gəldi. ”Sənin dərsin”. Həm də Qəşəm müəllimin öz ifasında. Təsəvvür edin ki, şeiri bəyənmə sayı 500 mini keçdi.**

*Şeir bir şagirdin müəlliminə bəslədiyi təmiz, saf duyğuların tərənnümüdür. İnandınız?! Mən də oxuyanda elə bildim. Ayhay!.. Şagird-filan deyilmiş. Qəşəm müəllimin özüymüş, ”müəlliməyə” şeir yazan. Söhbət edəndə dedi. İndi oxucumuz elə biləcək ki, Qəşəm müəllimin gizli sevgisini üzə çıxarmışıq. Elə də deyil. Bəlkə də çoxları bu şeirin tarixçəsini bilir, ya da şeirlə tanışdılar. Sadəcə, şeir vəsilə oldu və biz dəyərli, istedadlı şairimiz Qəşəm Nəcəfzadə ilə həmsöhbət olduq. Onu kövrək gənclik illərinə, doğma kənd həyatına qaytardıq.*

*Oxucularımıza əvvəlcə şeiri təqdim edək. Sonra söhbətə keçək.*

### Qəşəm Nəcəfzadə:

### "İnsan sevəndə o sevginin nişanəsi mütləq qalır"

### “Bəzən insan şeirdə o qədər gözəl görünür ki, şeirin ona aid olacağına inanmır”

**“Sənin dərsin”**

***Niyə şagirdlərin duymurlar səni,***
***Gül kimi dərsində səs eləyirlər.***
***Mən sevən əllərə, mən sevən gözə,***
***Mən sevən ürəyə qəsd eləyirlər.***
***Ağzı yanmışların yoxdu xəbəri,***
***Mən sənin önündə lal dayanıram.***
***Dəftərə qırmızı düzəliş kimi,***
***Varaq yanağımda al dayanıram.***
***Adın tək dərsimi əzbərləyirəm,***
***Sevgi baxışına boyanmaq üçün.***
***Ömrümü, günümü qurban verərəm,***
***Şagird tək önündə dayanmaq üçün.***
***Vaxt axır... şagirdlər duymurlar səni,***
***Gör necə qıyırlar kövrək səsinə.***
***Hardan bilsinlər ki, həsrət qalmışam***
***Qırx beş dəqiqənin bir dəqiqəsinə.***
***Səhvdi misalları, məsələləri,***
***Dərdini artırıb yüz eləyərlər.***
***Ölürəm mən sənin ”üç”ündən ötrü,***
***Verdiyin ”beş”lərə naz eləyərlər.***
***Təbaşir ləçəkli çiçək əllərin,***
***Lövhənin üzündə kəpənək olar.***
***Dəsmala bənzəyər göyçək əllərin,***
***Bir oğlan balanı bələmək olar.***
***Misra dodaqların yorular hərdən,***
***Saçların pırtdaşar, əllərin əsər.***
***Bir gözəl, bir göyçək oğlumuz olar,***
***Bu dəcəl qızların səsini kəsər...***

**- Qəşəm müəllim, bu şeiri nə zaman yazmısınız? Mən internetdə gördüm, 2014-cü ildə ən yaxşı şeir hesab olunub.**

- Bəli. 2014-cü ildə ”Ən yaxşı şeir” müsabiqəsinin qalibi oldu. Çap tarixi 2014-dür. Amma çoxdan yazılıb.

**- İndi niyə paylaşıldı?**

- Deyəsən, ”Ovqat” verilişindəki çıxışım zamanı lentə alınan zamandı. Bilirsiz, mən bir neçə dəfə verilişlərdə bu şeiri oxumuşam. Görünür, ”Ovqat” verilişi yenə həmin videonu paylaşıb. Şeir çox populyardı. O şeir daha çox oxunur, daha uzun ömürlü olur, hansının kontingenti böyükdür. Bu şeir müəllimə barədədir. Müəllimlər, şagirdlər, gənclər onu çox oxuyur, çox da paylaşılır. Belə deyim, nə qədər ki, məktəb olacaq, müəllimlər, şagirdlər olacaq, bu şeir də qalacaq.

**- Deyəcəksiniz, şagird idim, müəlliməyə vurulmuşdum?!**

- Yox, elə deməyəcəm. Çünki bu şeiri həyat yoldaşıma yazmışam.

**- Tarixçəsini danışa bilərsiz?**

- Niyə danışmıram? O vaxt nişanlıydım, gələcək həyat yoldaşım da məktəbdə ibtidai sinif müəlliməsi idi. Bir gün, nəsə aramız dəymişdi. Getdim məktəbə, pəncərədən boylandım, görüm neyniyir. Gördüm, sinifdə səs-küy, qışqırıq. O da uşaqların üstünə qışqırır, qabaqdakını şillələyir, arxadakılar səs salır, arxadakıları şillələyir, qabaqdakılar qışqırır. Aləm dəyib bir-birinə. Bu şeir belə yarandı. Şagirdləri nəzərdə tutub deyirəm ki, ”niyə şagirdlərin duymurlar səni, gül kimi dərsində səs eləyirlər. Mən sevən əllərə, mən sevən gözə, mən sevən ürəyə qəsd eləyirlər... ” Yaxud, ”ölürəm mən sənin ”üç”ündən ötrü, verdiyin ”beş”lərə naz eləyərlər”.

**- Hansı məktəbdəydi şeirə dönən bu vəziyyət?**

- İmişlidə, 1 saylı orta məktəb.

**- Siz gələcək həyat yoldaşınızı məktəbdə görüb bəyənmişdiniz, sevmişdiniz? Tanışlığınız necə olmuşdu?**

- Mən İmişli rayonunun Əliqulular kəndindənəm. Həyat yoldaşım Tabəs xanım Cəfərli kəndindən. Biz rayona köçmüşdük. Mən Gəncə Dövlət Universitetini bitirmişdim, məktəbdə müəllim işləyirdim. Tabəs xanım bacımla rəfiqə idi. O da rayonda qohumlarıgildə yaşayırdı. Qiyabi təhsil alırdı. Onun həyatı, uşaqlığı ağır, kədərli keçib. 5-ci sinifdə oxuyanda anasını itirib. Anasına çox bağlıymış. Xəstələnəndə onun yanında olub həmişə. Anası rəhmətə getdikdə, onu götürüb böyük bacısının yanına qoyublar. Orada yaşayıb. Qəribədi... Biz ailə qurandan sonra böyük qaynımgilə qonaq getmişdik. İkimərtəbəli ev idi, uzun pilləkəni vardı. Tabəs xanım pilləkənin ayağında dayandı, gördüm ki, kövrəlib, gözləri dolub. Soruşdum, nə olub? Dedi ki, bacımgilin uzun pilləkənləri vardı, o pilləkənləri düşüb çıxa-çıxa, başım qarışdı, pilləkənlər ana həsrətimi ovutdu...

**- İlk dəfə harda görmüşdünüz gələcək nişanlınızı? Maraqlı olan budu...**

- O vaxtlar məktəbdən uşaqları pambığa aparırdılar. Mən də şagirdlərimi pambığa aparmışdım. Uşaqlar üstümə gəldilər ki, bəs orda qızlar qoymur biz pambıq yığaq. Mən də getdim görüm nə məsələdi. Gördüm bu ”əjdəha”dı (Tabəs xanımı nəzərdə tutur- M.R.). Dedim, niyə qoymursuz uşaqlar pambıq yığsın? Qızardı. Dedi, mən sizi tanıyıram. O illərdə mənim şeir kitablarım nəşr olunmuşdu. Bir şeirim vardı, ”Gəl, qaçaq dünya”dan. Az-çox tanınırdım. Bu da demə, şeirlərimi oxuyub, bilir. Dedi ki, bacınız Sevili də tanıyıram. Yadımda o qaldı ki, mənimlə danışanda qıp-qırmızı qızarmışdı. İndi də qalıb o qızarmağı...

**- Sonra?**

- Sonra da əlaltdan adam göndərdik, soraqladıq ailələrini, özünü. Onda mənim ”06”m vardı, qara rəngdə. Şeir kitabımın puluna almışdım (İndi hardadı, şeir kitabına avtomobil alasan?!). Pambıq sahəsinə maşınla gedirdim, elə bilirləmiş ki, rayon katibinin qara ”Volqası”dı... (Gülür...) Sonra bacım bir gün onu evimizə qonaq gətirdi. Anam gördü, hamı gördü.

**- Bəyəndilər?**

- Bəli, bəyəndilər. Mən də albomları töküm ortaya. Məlum oldu ki, qəzetdə nəşr olunan şeirlərimi kəsib saxlayır. Tələbəlik şəkillərimə baxdı.

**- Siz də gənc, tanınan şair...**

- Hə...

**- Vuruldu sizə.**

- Yəqin ki... Amma biz onu soraqlaşanda, demişdilər ki, deyiklidi. Daha neyləyə bilərdik. Sonra öyrəndik ki, kim deyibsə, səhv eləyib. Düzgün məlumat toplamayıb. Belə, nişanlandıq. Atası çox dindar idi. Tabəsi də lap çox istəyirdi. Təsəvvür edin ki, nə vaxt xəstələnsə, atası sağalması üçün hər dəfə qurban deyirmiş, qız sağalanda qurban kəsirmiş. Maraqlı hadisə toy günü oldu. Bəlkə bilərsiz, o vaxtlar bəy gəlin gətirməyə getməzdi. Belə adət yoxuydu. Mən rayonda birinci bəy idim ki, gəlin gətirməyə özüm də getdim. Deməli, hökumətdə ZAQS kəsdirmişik, toyumuzdu. Aşıq dəstəsiynən getmişik qız evinə. Atamla pillələri çıxırıq, Tabəsin atası bizi dayandırdı. Dedi, kəbin kağızı var? Atam da qayıtdı ki, nikah kəsdirmişik. Dedi, yox kəbin olmasa, qız evdən çıxmayacaq. Ay Allah, indi biz neyləyək? Dedilər, yaxınlıqda Molla Bülbül var, onun yanına gedin, kəbin kəssin. Yaxın dedikləri də 15 kilometr yoldu. Nəysə, getdik ora. Bu dəfə mollanın yoldaşı dedi ki, bəs molla yatır, onu oyandıra bilmərəm. Gözləyin, özü nə vaxt ayılsa, içəri keçərsiniz. Çarəsiz atamla oturduq qapının ağzında, mollanın oyanmasını gözlədik. Aşıqlar da gəlin evində çalmaqdan birtəhər olub... Nəysə, molla oyandı, kəbinimizi kəsdi, kağızı götürüb gəldik, verdik kişiyə. Sonra gəlini evdən çıxardıq.

**- Yəni gəlin sizinlə kəbin kəsdirməyə getməmişdi.**



- Yox.

- Bu düzgün deyil də Qəşəm müəllim. Kəbinin də qaydası, qanunu var. Gəlin də olmalıdır, hər iki tərəfdən şahidlər, mehr və sair...

**- O vaxt kimiydi bunlara fikir verən?**

- Sizin Molla Bülbül də ”saxtakarlıq” eləyib. Düzgün kəsməyib kəbini.

**- Babalı daha onun boynuna.**

- Tabəs xanımı məktəbə işə də yəqin siz düzəltmisiniz.

- O, qiyabi təhsil alırdı. Qiyabi təhsil alanlar işləyə də bilirdi. Orta kursda məktəbdə işləməyə başladı. Təbii ki, məni tanıyırdılar, Gəncə Dövlət Universitetində tələbələrlə görüşüm keçirilmişdi. Orda tələbələr şeirlərimi oxudular. Sonra söz Tabəsə verildi. Çıxış elədi, dedi ki, mən səni indiyədək tanımamışam. Sənin nə gözəl şeirlərin var! Mən səni sevirəm. Mən də gülə-gülə dedim, bəs indiyədək bunu mənə niyə deməmisən?!. Mənim bir şeir kitabım çap olunmuşdu, orda 3 uşaq barədə yazmışdım: Kəramət, Tural, Sevinc. Şeirdə onlara hansı xüsusiyyətləri vermişdimsə, həyatda da övladlarım həmin xüsusiyyətlərə malik oldular.

**- O şeiri yazanda övladlarınız hələ yox idi?**

- Yox. Övladlarıma elə o şeirdəki adları qoyduq. Şeirdəki ”uşaqlara” bənzədilər. Qızım Sevincə bir şey yazmışdım:

***Xalça çiçək-çiçəkdi,***
***Hər ilmesi göyçəkdi.***
***Sevinc bir çiçəyindən tutdu, çəkdi, ha çəkdi,***
***Nə çiçək qopdu yerdən,***
***Nə də Sevinc əl çəkdi...***

Sevinc balaca idi, yerdəki xalçanın gəllərini qoparmağa ”çalışırdı. Bunu görüb yazmışdım. Sonra bu şeiri ”Azərbaycan dili” dərsliyinə salmışdılar. Sevincin qızı Aysu dərslikdə bu şeiri oxuyanda ”Sevinc” əvəzinə ”mama” deyirmiş. Müəlliməsi irad tutub ki, ”mama yox, Sevinc”. Aysu da deyib ki, Sevinc mamadı da! Bilirsiz, məncə insan sevəndə o sevginin nişanəsi mütləq qalır. Bir müddət sonra yenidən qayıdır. Yenidən doğulmuş kimi. Başına gəlmiş bir hadisə yenidən qarşına çıxır. Boşuna demirlər ki, Allah-təala bütün gözəlliklərdə təcəlla edir.

**- Demək istəyirsiz ki, indi də həyat yoldaşınızın gənclikdə olduğu kimi sevirsiniz?**

- Əlbəttə, mən indi də o hissləri yaşamaqdayam. Yadıma salıram, mənə bir söz deyiləndə ilk reaksiyam nə olub? İnanmışammı o sözə? İnanmışamsa, deməli, inandığım düzdü. Düz inanmışam. Çünki ilk intuisiya ən doğrusudur. Bir şeirim var; Evə qayıdıram, uşaqlar yatıb, sənin də gözündən yuxu sürüşüb. Adımı əlinin içinə yazmaq, görəsən, hayandan yadına düşüb?.. Bir gün evə gələndə gördüm ki, yoldaşım kresloda yuxuya gedib, ovcu açıqdır. Gördüm, ovcunun içinə ”Q” hərfi yazıb. Nişanlı olanda bir ovcuna ”Q”, o birisinə ”T” yazmışdı, hənə ilə. Bu dəfə isə flamasterlə yazmışdı. Mənim sərbəst şeirlərim də var, qafiyəsiz. Bir şeirimdə belə yazmışam; ”harda şeirlərim qafiyəsizdi, orda uşaqların üstün örtmüşəm...”

**- Bəs hənə ilə flamaster arasında neçə il keçmişdi?**

- Hardasa, 17 il... Deməli, insan başına gələn xoş hadisəni unutmaq bir yana, onu təkrarlayır da.

**- Neçə nəvəniz var, Qəşəm müəllim?**

- 6.

**- Maşallah...**

- Sevincin övladları Aysu, Ayişə, Yüzasif, Kəramətinkilər (Qəşəm müəllim Kəramətin adını çəkəndə ”yəqin onu tanıyırsınız?” soruşdu. Mən də ”Kəraməti tanımamaq olar?!”, dedim, o da güldü) Barış, Jasmin, Turalın bir qızı var, anasının adını qoyub - Tabəs. Bizə gəlir, evləri yığışdırır, o ev yığışdırandan sonra axtardığını tapa bilməzsən...

**- Dediniz məşhur şeirin yaranmasına səbəb nə idi? Niyə aranız dəymişdi?**

- Yenə də şeir üstündə... Bəzən insan şeirdə o qədər gözəl görünür ki, şeirin ona aid olacağına inanmır. Elə bilir, kiməsə başqasına yazılıb.

**- Yəni xanımınızın şeir qısqanclığından doğdu o şeir...**

- Bəli. Ondan əvvəl yazılan şeirlərə qısqanırdı.

**- İndi yenə müəllimə işləyir yoldaşınız?**

- Yox. Gözündə problem yarandı, işləyə bilmədi.

**- Amma təqaüd yaşında deyil də.**

- Yox. Bu gün (15 sentyabr) onun doğum günüdü! 55 yaşı tamam olur.

*(Bu məni həqiqətən təəccübləndirdi və sevindirdi. Çünki Qəşəm müəllimə zəng edəndə bunu bilmirdik)*

**- Çox xoş oldu, Qəşəm müəllim. Sabah qəzetimizi Tabəs xanıma hədiyyə edərsiniz. Sürpriz olar ona...**

**Söhbətləşdi: Məlahət Rzayeva**

---

## Qazaxın 7 kəndinin qaytarılmasına şübhə yoxdur

### Hətta proses yaxın günlərdə baş tutacaq

**Məlum olduğu kimi, Qazaxın yeddi kəndi uzun illərdir işğal altındadır. Düşmən ərazilərimizi sülh yolu ilə qaytarmaq barədə razılıq versə də, hələ heç bir addım atmayıb. ”Dəmir yumruq” üçün darıxıbmı, ya ənənəvi erməni xislətinimi ortaya qoyur, demək çətindir.**

Əsas və əminliklə deyə biləcəyimiz məsələ ilə ədalətin tez-gec bərpa olunacağıdır. Biz bunu bir daha sübut etmişik. ”Ayna-Zerkalo” qəzetlərinin təsisçisi və baş redaktoru Elçin Şıxlı ”Şərq”ə açıqlamasında sözügedən məsələnin sərhədlərin müəyyənləşməsi ilə bağlı olduğunu vurğulayıb: ”Qazaxın yeddi kəndi bizimdir və ərazilərimiz qaytarılacaq. Buna şübhə yoxdur. Hətta, yəqin, proses bu yaxınlarda baş tutacaq.

Təəssüf ki, Qazaxın kəndlərinin qaytarılması sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlıdır. Sərhədlər müəyyənləşmədən kəndlərimiz qaytarılmayacaq, insanlarımız oraya geri dönməyəcək”.

**Kənan**

## 15 sentyabr "Paytaxt günü" elan edilsin!

### “Bakıda xilaskarların şərəfinə abidə qoyulmalıdır”

**Tanınmış telejurnalist, professor Qulu Məhərrəmli Bakının 103 il əvvəl erməni-bolşevik işğalından azad edildiyi 15 sentyabr tarixinin ”Paytaxt günü” elan olunması təşəbbüsü ilə çıxış edib.**

O, bununla bağlı ”Facebook” səhifəsində qeydlərini paylaşıb: ”Hələ 1994-cü ildə AzTV-də - ”7 gün” verilişində Bakının bolşevik-daşnak işğalından azad olunması ilə bağlı mərhum professor Şirməmməd Hüseynovla danışarkən belə bir təklif səslənmişdi: 15 sentyabr ”Paytaxt günü” elan olunsun və Bakıda xilaskarların, o cümlədən Nuru Paşanın şərəfinə abidə qoyulsun!”. Qulu Məhərrəmli daha sonra qeyd edib ki, biz 103 il əvvəl Bakını işğaldan xilas etmiş qardaş Türkiyəni, onun Qafqaz İslam Ordusunun tarixi xidmətlərini ehtiramla yad edir, ”Paytaxt günü” ideyasının reallaşmasına ümidimizi itirmirik!

# Xalqa qənim kəsilənlər təkcə icra başçıları deyil

### Yerlərdə polis rəisi, prokuror və digər rəhbər işçilər də var

**Yeganə Bayramova**

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev Cəlilabad və Şəmkir rayonlarına yeni icra başçıları təyin olunması haqqında Sərəncam imzalayıb. Cəlilov Rafiq Əsgər oğlu Cəlilabad rayonuna, Rəşad Ənvər oğlu Tağıyev isə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.**

Ölkə başçısı həmin şəxsləri icra başçıcı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib, bir sıra mühüm məqamlara toxunub.

Prezident qeyd edib ki, icra başçıları xalqa xidmət göstərməli, vəzifələrini şəffaflıqla yerinə yetirməlidirlər. Maraqlıdır, yeni icra başçıları bu gözləntiləri doğruldacaqmı?

**Sualımızı cavablandıran Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədovun ”Şərq”ə açıqlamasına görə, yeni təyinat alan icra başçıları əvvəlkilərə baxıb nəticə çıxarır və onların aqibəti yeni məmurlar üçün bir dərs olur:** ”Yerli icra hakimiyyəti orqanlarının səlahiyyətləri xüsusi əsasnamə ilə tənzimlənir. Bu əsasnamə də Prezident tərəfindən təsdiq olunur. Bu gün bir rayonda icra hakimiyyəti başçısının yerli hakimiyyətə məxsus olan səlahiyyətlərinin çoxu əllərindən alınıb. Məsələn, təhsil, səhiyyə, sosial təminat və maliyyə məsələləri yerli hakimiyyətdə olub. Ona görə də ortada səlahiyyət məsələsi var. Yəni yerli icra hakimiyyətinin başçısı mövcud səlahiyyətlər çərçivəsində nə edə bilər məsələsi əsasdır.



*"Yerli icra hakimiyyəti orqanlarında paralel olaraq başqa islahatlara da start verməyin vaxtı çatıb"*

Digər məsələ əmək haqları ilə bağlıdır. Məsələn, əhalisi 50 mindən aşağı olan rayonlarda icra hakimiyyəti başçısının maaşı 880 manatdır. Ondan da 14 faiz gəlir vergisi, 3.5 faiz sosial sığorta, 2 faiz tibbi sığorta tutulur. Hesab edirəm ki, kənarda kommersiya fəaliyyəti və hansısa gəlir mənbəyi olmayan şəxsin bu əmək haqqı ilə vəzifəsini yerinə yetirməsi ancaq fədakarlıq ola bilər”.

**S.Məmmədov qeyd edib ki, icra hakimləri dəyişir, amma yerlərdə polis rəisi, prokuror və digər rəhbər işçilər var:** ”Bir rayonda hansısa korrupsiya və digər qeyri-şəffaf hallar olarsa, bu yalnız icra hakimiyyətlərinin adı ilə bağlı deyil. Əlbəttə, fəaliyyətində cinayət əməli olan icra hakimləri ifşa edilməli, onlar yeniləri ilə əvəzlənməlidir. Ancaq yerli icra hakimiyyəti orqanlarında paralel olaraq başqa islahatlara da start verməyin vaxtı çatıb. Ümid edirəm ki, Prezident mövcud inzibati ərazi quruluşu çərçivəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı islahatlara başlayacaq”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**



# İslahatları daha da dərinləşdirməliyik

## Azərbaycanın Avropaya inteqrasiya etməkdən savayı yolu yoxdur

İsmayıl Qocayev

### “Qərb də regiona yanaşmasını dəyişməli, ikili standartlara son qoymalıdır”

**Məlum olduğu kimi Prezident İlham Əliyev Azərbaycanın Belçika Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Vaqif Sadıqovun ölkəmizin Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb. İllərdir müzakirə olunan, müəyyən yol qət edilsə də, yekun nəticə əldə edilməyən mühüm məsələlərdən biri də Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq və tərəfdaşlıq sazişinin imzalanmasıdır.**

44 günlük müharibəyə qədər Avropa İttifaqının rəsmi Bakıya baxışı kifayət qədər fərqli və qərəzli idi. Savaşdan sonra müsbətə doğru müəyyən yanaşma hiss olunduğuna görə, yaxın müddətdə Aİ ilə Azərbaycan arasında Sazişin imzalanacağı iddia edilirdi. Ancaq əfsuslar olsun ki, 4 ildir aparılan danışıqlar hələ də nəticəsizdir. Bir müddət öncə verilən açıqlamada danışıqlarda 90 faiz razılıq əldə olunduğu, bir sıra texniki məsələlərin qaldığı deyilirdi. Azərbaycan və Avropa İttifaqı arasındakı əlaqələr 1991-ci ildə yaranıb. 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, ticarət, sərmayə, qanunvericilik, elm və mədəniyyət sahəsində əməkdaşlığı əhatə edir. 1998-ci ildə Aİ Azərbaycana xüsusi elçisini təyin edib. 2000-ci ildə Azərbaycanın Aİ yanında Nümayəndəliyi təsis edilib. 2003-cü ilin iyul ayında Aİ Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi təyin edilib. 2004-cü ildə Azərbaycan Avropa Qonşuluq Siyasətinə, 2009-cu ildə isə onun Şərq istiqaməti üzrə çoxtərəfli əməkdaşlıq formatı olan ”Şərq Tərəfdaşlığı” proqramına daxil edilib. 2014-cü ildə tərəflər arasında Azərbaycanın Aİ proqramlarında və agentliklərində iştirakına dair Protokol imzalanıb. ”Şərq Tərəfdaşlığı” Avropa İttifaqının altı qonşu ölkəsini əhatə edir. Bura Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna, Belarus və Ermənistan daxildir. Bu ölkələrdən Gürcüstan, Moldova və Ukrayna qurumla assosiasiya sazişi imzalayıb. 2017-ci ilin noyabrında qurumla Ermənistan arasında tərəfdaşlıq sazişi imzalansa da, hələlik Aİ ilə Azərbaycan bu sazişi imzalamayıb.

Xatırladaq ki, iyulun 18-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycanda səfərdə olub və Prezident İlham Əliyevlə görüşüb. Görüşdə siyasi-iqtisadi əlaqələr, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizi və nəqliyyat sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Cənubi Qafqazda əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılıb. Prezident bildirib ki, Avropa İttifaqı Azərbaycan üçün yaxın tərəfdaşdır: ”Biz üzv dövlətlərlə ikitərəfli əlaqələrdə çox fəalıq. Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb və ya qəbul edib”. Ölkə rəhbəri qeyd edib ki, qısa zamanda masa üzərində qalan məsələlərin əksəriyyətini həll edə bilərik. Şarl Mişel də öz növbəsində bildirib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa strateji xarakter vermək istəyirlər.

Ekspertlərə görə, Azərbaycanla Avropa İttifaqı arasında mövcud olan tərəfdaşlıq münasibətləri bütövlükdə Cənubi Qafqazın geosiyasi gələcəyi üçün çox əhəmiyyətlidir. Avropa İttifaqı hələ də dünyanın böyük geosiyasi güclərindən biridir. Faktiki olaraq, Aİ hazırda böyük bir məkanda geosiyasi balans yaratmaq funksiyasını yerinə yetirir. Eyni zamanda, Avropa İttifaqı Cənubi Qafqaz dövlətləri ilə münasibətlərin qurulmasında müəyyən təcrübəyə malikdir. Digər yandan Azərbaycan son illər ərzində sürətli iqtisadi inkişaf yolu keçib. Müstəqil siyasətini daha da təkmilləşdirərək İkinci Qarabağ müharibəsində parlaq qələbə qazanıb. Məhz bu baxımdan dünyanın böyük geosiyasi gücləri regiondakı siyasətlərinə düzəlişlər etməli oldular. Ona görə də Aİ ilə Azərbaycan arasında Sazişin yaxın dönəmdə nəhayət imzalanacağı iddia edilməkdədir.

**İllərdir davam edən müzakirələrlə bağlı ”Şərq”ə danışan siyasi icmalçı Azər Niftiyev deyib ki, Azərbaycanın Avropaya inteqrasiya etməkdən savayı yolu yoxdur. Analitik bildirib ki, müasir dövrə inteqrasiya, siyasi sabitliyin təmin olunması, böyük iqtisadi layihələr Avropaya inteqrasiya olunmaqdan keçir:** ”Biz irəliyə baxırıqsa, mütləq şəkildə üzümüzü Qərbə tərəf çevirməliyik. Əslində Azərbaycan iqtidarının da bununla bağlı mövqeyi ortadadır. Dəfələrlə ən yüksək rəsmi səviyyədə ölkəmizin ”Şərq Tərəfdaşlığı” təşəbbüsünə qoşulmasında maraqlı olduğu qeyd olunub. ”Şərq Tərəfdaşlığı” Avropa Birliyinın qonşuluq siyasəti çərçivəsində MDB ölkələri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəldilmiş təşəbbüsüdür. Bu sırada altı dövlətin adı çəkilir ki, onların hamısı keçmiş sovet ittifaqı ölkələridir. Postsovet məkanının Avropaya inteqrasiya etməsinin qarşısını almaq istəyən güc - Rusiyadır. Bu dövlətlərin ”Şərq Tərəfdaşlığı” təşəbbüsünə qoşulmasının qarşısını alan ən ciddi maneə Moskvadır. Rəsmi Kreml bilir ki, bu baş verərsə, regionda dominant mövqeyini itirə bilər”.

*Ekspertin fikrincə, Qərb də regiona yanaşmasını dəyişməli, ikili standartlara son qoymalıdır:* ”ABŞ və Avropa bir tərəfdən postsovet dövlətlərini Avropaya inteqrasiya etməyə təşviq edir, digər yandan bu prosesi tormozlayacaq addımlar atır. Qərb sovet ittifaqının dağılmasından sonra dərinləşmiş münaqişələrin həllində birtərəfli mövqe ortaya qoyur. Biz bunu Qarabağ münaqişəsinə münasibətdə də dəfələrlə müşahidə etmişik. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın xeyrinə olan qətnamələri mövcud olub, bu qərarlar sadəcə kağız üzərində qalıb. ABŞ və Fransanın təmsil olunduğu ATƏT-in Minsk qrupu münaqişənin həllində obyektiv mövqe nümayiş etdirməyib. Nəticədə Azərbaycan məcbur qalıb, öz torpaqlarını güc yolu ilə işğaldan azad edib. Yaranmış vəziyyətdən Rusiya da öz maraqlarına uyğun şəkildə istifadə edib və regionda öz mövqeyini daha da gücləndirib. Bunun əsas günahkarı həm də böyük anlamda Qərb, ABŞ və Avropa dövlətləridir”. A.Niftiyev əlavə edib ki, Azərbaycanın Qərbə inteqrasiya istiqamətində vacib amillərdən biri islahatlar prosesini dərinləşdirməkdir: ”Bu gün Azərbaycanda kompleks instusional islahatlar həyata keçirilir. Bu islahatlar ölkəmizin Avropaya inteqrasiyası prosesinə böyük töhfədir. Lakin bununla kifayətlənmək olmaz. Hesab edirəm ki, biz islahatlar prosesini dərinləşdirməli, müasir dövrün çağırışlarına cavab vermək istiqamətində səylərimizi daha da artırmalıyıq”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Strateji səhvlər var"

## “Aİ-92” markalı benzinin bahalaşması da istisna deyil

Kənan Novruzov

**Azərbaycanda bu gündən etibarən ”Aİ-95” premium və ”Aİ-98” super markalı benzinin qiymətində dəyişiklik edilib. ”Aİ-95” markalı benzinin qiyməti 1,60 AZN, ”Aİ-98” markalı benzinin qiyməti isə 1,90 AZN təşkil edəcək. Ölkəmizdə premium və super markalı benzinin qiymətinin artmasına beynəlxalq bazarda məhsulun dəyərinə təsir edən amillər səbəb olub.**

Qeyd edək ki, ”Aİ-95” premium və ”Aİ-98” super markalı benzin Azərbaycanda istehsal olunmadığından xarici ölkələrdən idxal edilir. Məhsulun bu ölkələrdə qiymətinin artması onun idxal dəyərinə və eləcə də respublikamızdakı satış qiymətinə də birbaşa təsir edir. Son qiymət dəyişikliyinə qədər respublikamıza xaricdən idxal edilən ”Aİ-95” premium markalı benzinin qiyməti 1,45 AZN, ”Aİ-98” super markalı benzinin qiyməti 1,60 AZN təşkil edirdi. SOCAR bu barədə verdiyi açıqlamada ”A-98 SUPER” və ”A-95 PREMİUM” yanacaq növlərinin bahalaşmasının mənbə ölkədəki qiymət artımı ilə əlaqələndirib.

Əlbəttə, yanacağın bahalaşması heç də xoş gələcəkdən xəbər vermir. Məlum olduğu kimi, bir çox sahibkar qiymət artımı üçün bir ”him” axtarır.

”Şərq” olaraq sözügedən yanacaq markalarının qiymətinin bahalaşması və bunun təsirləri barədə ReAL partiyasının icraçı katibi, iqtisadçı-ekspert Natiq Cəfərli ilə söhbət etdik:

**- ”Aİ-95” premium və ”Aİ-98” super markalı benzinin bahalaşmasının iqtisadi əsası var idimi?**

- Bir neçə il əvvəl dövlət bu markalı yanacaqların qiymətinin tənzimlənməsindən imtina etdi. Və bundan sonra qiyməti bazarın tənzimləyəcəyi barədə elan verildi. Amma bu olmadı. Hazırda bazardakı yeganə ”oyunçu” SOCAR-dır. Adını çəkdiyim qurum qiymətləri istədiyi kimi diktə edir.

**- Açıqlamada qiymət artımının dünyadakı bahalaşma tendensiyasına uyğun olduğu deyilir...**

- Bu, ilk baxışdan məntiqlidir. Lakin sual yaranır: keçən il dünyada yanacağın qiyməti 20-30 dollar ucuzlaşanda, bu, Azərbaycanda niyə müşahidə edilmədi? Təəssüf ki, ölkəmizdə ancaq qiymət artımı görürük. İkinci bir tərəfdən, neft ölkəsi olan Azərbaycan niyə indiyədək müasir neftayırma zavodu inşa edib, istifadəyə vermədi? Belə olsa, xaricdən asılılıq xeyli azalar, hətta biz başqa ölkələrə yanacaq satardıq. Bu, hökumətin ciddi strateji səhvidir. Biz 95 markalı neftin 72 faizini Rusiyadan alırıq. Necə oldu ki, Rusiya yanacaq ixrac etməyi bacardı, bizsə yox?!

**- 92 markalı benzinin qiymətinin gələcək perspektivi barədə nə düşünürsünüz?**

- Bu növ yanacağın qiyməti yanvarda artdı. Və əslində sonradan sürətli bahalaşmanın əsası da o vaxtda qoyuldu. Nəticədə inflyasiya artdı, insanların ümumi gəlirləri azaldı. Gələcəkdə 92 markalı benzinin qiymətinin yenidən bahalaşması da istisna deyil.

**- Bəs bu bahalaşmaların ərzaq məhsullarının qiymətinə təsiri nədən ibarət olacaq?**

- ”Aİ-95” premium və ”Aİ-98” super markalı benzinin iqtisadiyyata birbaşa təsiri yoxdur. Bu növ benzinlərdən yeni avtomobillərdə istifadə olunur. Amma qiymət artımı üçün psixoloji əsas ola bilər.

# Göstəricilər indiki reallığı əks etdirmir

## Əslində nikahların sayı azalır, boşanmalar isə kəskin artır

Aynurə Pənahqızı



**Bu il Azərbaycanda nikahların sayı ötən illə müqayisədə 50 faizə qədər artıb. Məlumata görə, 2021-ci ilin yanvar-iyul aylarında qeydiyyat şöbələri tərəfindən 30 289 nikaha daxilolma və 9 692 boşanma halları qeydə alınıb. Azərbaycanda nikahların sayının artması nə ilə əlaqəlidir?**

*”Altay” Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı ”Şərq”ə açıqlamasında deyib ki, əslində ölkəmizdə nikahlarda real artım yoxdur. O qeyd edib ki, bu göstərici sadəcə pandemiya ilə bağlıdır və bu, son 1 ilin yığılmış toy mərasimlərinin nəticəsidir:* ”Faktiki olaraq, ölkəmizdə nikahlar azalır, boşanmalar isə kəskin artır. Bu isə ailə institutumuzun dağılmağa doğru getdiyini və yaxında milli genefondumuz üçün ciddi problemlər yaranacağını göstərir. Problemin qarşısını almaq üçün həm dövlət, həm də cəmiyyət mübarizə aparmalıdır. Mənəvi dəyərləri görməzdən gəlib, maddi dəyərləri önə çıxarmağa son qoyulmalıdır. Gəncləri mənəvi dəyərlərdən aralayıb, onlara yalnız əyləncə, eqoizm, laqeydlik təbliğ edən televiziyalar və sair bu kimi təbliğat vasitələri cəzalandırılmalıdır”.

**Sosioloq diqqətə çatdırıb ki, sosial problemlər, işsizlik, yoxsulluq kimi faktorlar da nikahların azalmasına, boşanmaların artmasına ciddi təsir göstərir:** ”Misal üçün, Bakıda mənzillərin qiyməti astronomik həddədir, orta statistik azərbaycanlı ömrünün axırına kimi işləsə də ev ala bilməz. Elə regionlarda da evlər bahadır. İş tapmaq çətindir, tapanda da uzağı 300-500 manat maaşa. Bu maaşla isə yalnız 1 nəfər yaşaya bilər, ailə saxlamaq olmaz”.

### "Bakıda mənzillərin qiyməti astronomik həddədir, orta statistik azərbaycanlı ömrünün axırına kimi işləsə də ev ala bilməz"

E.Bayramlı son zamanlar ölkəmizdə əcnəbi evliliklərinin sayının artdığını da vurğulayıb: ”Əcnəbilərlə evliliklərin artması heç də yaxşı hal deyil. Müşahidələr göstərir ki, belə evliliklərin əksəriyyətinin axırı heç də yaxşı qurtarmır. Çünki fərqli cəmiyyətlərdə yaşayan insanların psixologiyaları, mənəvi dəyərlərə baxışı, həyat tərzi fərqli olur və tərəflər çox vaxt uyğunlaşa bilmirlər. Əcnəbilərlə evlənmə hallarının artmasının müxtəlif səbəblər var. Bəziləri xaricdə yaşamaq üçün, bəziləri daha imkanlı ər və ya arvad tapmaq üçün, bəziləri burada heç kim onunla evlənmədiyi üçün əcnəbilərə üstünlük verirlər. Açıq desək, bakirə olmayan, fahişəliklə məşğul olan qadınlar burada heç kim onlarla evlənmədiyi üçün əcnəbilərlə evlənirlər. Eləcə də, bəzi kişilər xarici ölkədə yaşaya, işləyə bilmək üçün əcnəbi qızlarla ailə qururlar. Bu da çox vaxt müvəqqəti xarakter daşıyır. Əlbəttə, az sayda olsa da, sevgi üzərində qurulan ailələr də var. Sevgi milliyət, din, sosial, siyasi mənsubiyyət tanımır. Belə ailələr dünya xaqlarının inteqrasiyası, mədəniyyətlərin uyğunlaşması, mənəvi dəyərlərin bölüşülməsi üçün bir nümunə də ola bilirlər. Ümumiyyətlə, ailə qurulması məsələsinə çox ciddi yanaşılmalıdır, burada necə deyərlər, yüz ölçüb bir biçmək lazımdır. Çalışılmalıdır ki, qarşı tərəfin xasiyyətləri, psixologiyası, həyat tərzi, düşüncə tərzi heç olmasa bir az uyğun olsun. Əks halda problemlər yaranır. Təəssüf ki, müasir gənclərin bir çoxu ailəni oyuncağa döndəriblər. Bunun qarşısı alınmalıdır”.

# Gülə-gülə, Yaqub bəy!



## Bəlkə bir gün arzularınız gerçək olar

**Samirə, Aygün**

**Hamı "Ayrılıq"la-bölünmüş Vətənin həsrət nəğməsi ilə yad etdi onu. Mənim isə ilk ağlıma gələn "Dəniz" mahnısı oldu. Nə vaxt qəmgin olsam, bir az üzülsəm dinləyirdim, elə pozitiv enerji ötürürdü ki... İndi mahnının ifaçısının dünyadan köçdüyünə inana bilmirəm. Axı hər zaman gülərüz, həyatdolu adam necə bir xəstəliyə məğlub ola bilər? Amma təəssüf ki, o da koronaya yenildi.**

Əməkdar artist Yaqub Zurufçudan bəhs edirəm. Sentyabrın 14-ü cismən aramızdan ayrıldı, səhəri gün "Qurd qapısı" məzarlığında torpağa tapşırıldı. Ailəsi, doğmaları orada idi.

Mən və həmkarım Aygün Tahirqızı da sənətkara həm mənəvi, həm də vəzifə borcumuzu ödəmək üçün məzarlığa yollandıq. Çətinliklə də olsa, ünvana çatdıq. Dedilər ki, Xalq artistləri Arif Quliyevin və Rafiq Hüseynovun (Rəmiş) yanında dəfn olunacaq. Biz də onların məzarlarına doğru irəlilədik. Maşınları və media nümayəndələrini görəndə buranın ora-o taylı, bu taylı vətənin oğlu Yaqub Zurufçunun son evi olduğunu anladıq. Ətrafda dolandıq, qazılıb, hazırlanan qəbrin başına gəldik.

Bir neçə addım irəlidə Xalq artisti Ramiz Əzizbəyli uyuyur. Ona da baş çəkdik. Elə bu məqamda qələbəliyə nəzər yetirdim, deyəsən, Yaqub bəyin nəşini gətiriblər. Budur, yaşıl xalçaya bükülü cənazəsinin başında ömür-gün yoldaşı Aynur Zurufçu dayanıb. Əhatəsində insanlar var, təsəlli etməyə, gözünün yaşını silməyə çalışırlar. Yanındakı xanımlardan biri A.Zurufçunun anasıdır, qızını bağrına basıb yarasına məlhəm olur, deyir ki, sənin həyat yoldaşın ürəyindədir.

Dəfn üçün qardaşını gözləyirlər, o da Almaniyadan gəlib. Söhbətlərdən anlaşılır ki, sənətçinin üç övladı var, ikisi Amerikadadır, yoldadırlar, atalarının dəfninə çata bilməsələr də, onun isti məzarına baş çəkmək üçün gəlirlər. Son beşiyi Atilla oradadır, atası ilə vidalaşır. Cəmi 10 yaşındadır. Uşaq ağlı ilə atasına "əlvida" deməlidir. Əlində qərənfillər, gah nənəsinin, gah da xalasının ətəyindən yapışır, arada Aynur xanım oğlunun başına sığal çəkir. Atilla atasının məzarına gül qoymalıdır, oğul kimi bu az yaşında vəzifəsini yerinə yetirməlidir. İri, qara gözlərində üzüntü və qorxu hökm sürür. Bəlkə də indi anlamır, lakin böyüyəndə bu ağrını daha dərindən dərk edəcək.

Yaqub bəyi qəbrinə doğru gətirirlər. Burada media nümayəndələrindən fotoaparatlarını, video-kameralarını söndürmələrini istəyirlər.

Gözüm lap qabaqda dayanan, beli bükülmüş Aynur Zurufçuya sataşır. Həyat yoldaşının torpağa tapşırılmasına ürəkağrısı ilə baxır. Mərhumun qayınanası qızının halını görüb dillənir: "Gözəl insan, gözəl sənətkar idi. Ay fani dünya". Nəhayət bitir, qəbrin üstü örtülür, Y.Zurufçunun böyüdülmüş fotosu məzarın başına yerləşdirilir, əklillər yanyörəsinə qoyulur. Ürəyimdə danışıram, deyirəm, Yaqub bəy də bütov Azərbaycan arzusu ilə köçüb getdi... Vəfatından bir neçə saat sonra rəsmi feysbuk səhifəsində yazılan cümləni xatırlayıram:

"Güney boyda dağ, bütov Azərbaycan boyda ürək, əlvida". Yəqin, Aynur xanım yazıb deyə düşünürəm. Qəfil fikirdən ayılıram, doğmaları danışırlar, deyirlər ki, möcüzə olmasını çox gözlədik, olmadı:

"Sağalacağına ümid edirdik, on beş gün xəstə yatdı. Son günlərdə ağırlaşdı".

**Və A.Zurufçu həyat yoldaşının məzarı başında çıxış edir:**

"Qəhərlənirəm. Böyük adamlar haqda kiçiklər söz danışmamalıdır. Y.Zurufçu dühasının qarşısında danışmaq üçün özümü kiçik hesab edirəm. Hamımız onu gözəl bilirik, tanıyırıq. Ürəyi, beyni ilə böyük şəxsiyyət idi. Mən azərbaycançılığı ondan öyrənmişəm. Yaqubdan böyük azərbaycançı tanımıram. Bütün varlığı, qəlbi ilə vətəninə bağlı idi. Dünyanı gəzdi, Azərbaycanda, Bakıda özünə yuva qurdu. Bütün dostlarını ölkəmizə dəvət edirdi. Deyirdi, gəlin, orada niyə qalırsınız, insan kimi yaşamaq istəyirsinizsə, Azərbaycana gəlin. O, bütöv Azərbaycanın simvolu idi. Ən gözəl musiqilərimizin, ən gözəl səsi idi. Vətənini bütov görmək onun arzusu idi. Heyif, arzusuna çata bilmədi. Təəssüf edirəm ki, o bu cür dəfn olunur. Çünki Yaqub ən uca zirvələrdə, yerlərdədir. Neçə gündür ki, istər dövlət adamlarından, istərsə də sıravi vətəndaşlardan diqqət, qayğı görürəm. Pandemiya ilə əlaqəli məhdud sayda insan bura toplaşıb. Əksi olsa, o insanların çiynində son mənzilə yola salınacaqdı, sevdiyi torpağın qoynuna tapşırılacaqdı. Nə qədər Azərbaycan var, Yaqub Zurufçu yaşayacaq. Yalnız evimizdən deyil, elimizdən də getdi. Daim xatirəsini yaşadacağam. Mən etməsəm də, xalqımız, oğlumuz yaşadacaq. Səni sevirəm, böyük adam".

**Mərhumun qardaşı Eyyub Zurufçu da Y.Zurufçudan danışdı:**

"Yaqubla həm də səmimi dostluğumuz olub. Xatirələrimizi bir-bir danışmaq imkansızdır. Mən də pərişan vəziyyətdəyəm. Təəccüb içindəyəm".

Gülə-gülə gedin, Yaqub bəy. Bəlkə bir gün arzularımız gerçək olar, biz də sizdən azad Təbrizə salam apararıq...



## Ramiz Əzizbəylinin məzar daşı hələ qoyulmayıb

**Üç ay öncə dünyasını dəyişən Xalq artisti Ramiz Əzizbəylinin məzar daşı hələ də qoyulmayıb.**

Mədəniyyət Nazirliyinin mətbuat katibi Məryəm Qafarzadə "Şərq"ə mövzu haqda bunları söyləyib:

"Bildirmişdik ki, mədəniyyət və incəsənət xadimlərinin məzar daşının qoyulması üçün bizə əlavə büdcə ayrılmır.

Bu məsələlər Mədəniyyət Nazirliyinin səlahiyyətlərinə aid deyil. Amma dəfn mərasimində mümkün qədər iştirak edirik, dəstəyimizi göstəririk".

**Samirə Ərəblinski**

**Elan**

Hərrac: Bakı şəh, İ.Hidayətzadə küç, 156(20A) 1933-cü məh, ünvanda keçirilir.tel:566-70-25, 566-79-67.http:birjanew.az. Açıq formada. Yasamal Rayon İcra Şöbəsi ; Nəqliyyat (Tələbkar LPO"Royalbank " ASC , cavabdeh Budaqov Elşən Rafiq oğlu) "Opel Vectra " nəqliyyat vasitəsi - 765.00 manat. 10.09.2021-ci il tarixinə təyin olunmuş 1-ci hərrac baş tutmadığından 15 % az olan qiymətlə Beh: Satış qiymətinin 5% hərrac təşkilatının depozit hesabına. Behlər hərrac gününə kimi qəbul olunur. Hərraca beh ödəmiş iştirakçlar saat 11:00 da hərrac təşkilatında qeydiyyatdan keçməlidirlər. Hərrac addımı ipoteka predmetlərində: Satış qiymətinin 3%-dək. Digər hallarda sərbəst. 01/731k lot üzrə. Fiziki şəxslər şəxsiyyət vəsiqəsi;Hüquqi şəxslər-təsis sənədləri.Hərracı udmuş şəxs alış qiymətini 7 təqvim günü müddətində İcra və Probasiya Şöbəsinin depozit hesabina ödəməlidir. Qalib olmayan alıcıların behləri 7 təqdim günü müddətində geri qaytarılır. Hərrac 01.10.2021-ciil tarixində saat 11:00-17.00-dək (növbəlik əsasında) keçiriləcək.

## Azercell rekord ballı abituriyentlərimizi təbrik etdi!










**Şirkət 27 abituriyent və Vətən Müharibəsində şəhid olmuş hərbçilərimizin 16 nəfər tələbə adını qazanmış övladına dəyərli hədiyyələr təqdim edib 15 sentyabr Bilik Günü ərəfəsində ölkənin lider mobil operatoru "Azercell Telekom" bu dəfə yenicə tələbə adını qazanmış gənclərimizə yönəlik daha bir sosial təşəbbüslə çıxış edir.**

Belə ki, 2021-ci il Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş qəbul imtahanları zamanı ən yüksək bal toplayan 27 abituriyent və Vətən Müharibəsində şəhid olmuş hərbçilərimizin 16 nəfər ali məktəblərə yollanan övladına onların tədris həyatında əsl yardımçıya çevriləcək hədiyyələr təqdim etdi.

Dövlət İmtahan Mərkəzi və "Zəfər" İctimai Birliyinin test imtahanlarının nəticələri üzrə təqdim edilmiş siyahıları əsasında seçilən 43 nəfər abituriyent Azercell-dən 12 ay müddətində aktiv olacaq GencOl 6 tarifinə qoşulmaq imkanı qazandı. Xatırladaq ki, GəncOl 6 tarixi çərçivəsində tələbə-abunəçi aylıq 3GB mobil internet, 300 tarifdaxili dəqiqə, Azercell-in tətbiqlərindən istifadə etmək üçün 3GB və WhatsApp proqramında pulsuz yazışma imkanı qazanır. Bundan əlavə, Respublika üzrə ən yüksək bal yığmış yeddi abituriyent və dörd şəhid övladı şirkətdən hədiyyə olaraq 64GB Samsung Galaxy planşetini də hədiyyə aldı. Müxtəlif informasiya resurslarına rahat və operativ çıxış imkanının vacib olduğu bir dövrdə həmin hədiyyələr tələbələrin əlavə bilgilərlə bağlı ehtiyaclarını qarşılamaqda yardımçı olacaq.

Qeyd edək ki, "Azercell Telekom" hər il məktəbli və tələbələr üçün zəngin məlumat mənbəyi olan müxtəlif rəqəmsal xidmətlərdən yararlanmaq məqsədilə yeni imkanlar təşkil edir, istedadlı tələbələrə təqaüd və təcrübə proqramları həyata keçirir.

44 günlük Vətən müharibəsi zamanı canlarından keçən igid şəhidlərimizin ailə üzvləri üçün şirkət tərəfindən müxtəlif sosial təşəbbüslər, peşəkar inkişaf və dil bilgilərinin artırılmasına yönəlik onlayn təlimlər keçirilməsinə dəstək verilir. Yüksək əzmkarlıqla qəbul imtahanlarına hazırlaşaraq ali məktəblərə qəbul olan istedadlı gənclərimizlə qürur duyuruq!

## "CityNet"dən Payız kampaniyası

"CityNet"ə qoşul, internet ruter və TV Box-u pulsuz əldə et!




**Yüksək sürətli internet və keyfiyyətli IPTV (internet protokol televiziyası) xidməti ilə fərqlənən "CityNet" internet provayderi əlverişli Payız kampaniyasına start verib.**

Artıq şirkətin təqdim etdiyi internet tarif planlarından hər hansı birinə qoşulan və 1 aylıq abunə haqqını ödəyən abunəçilərə internet ruter abunəlik dövrü ərzində istifadəyə pulsuz verilir. İnternet + IPTV xidmətini seçib tarif planlarından birinə qoşulan və 1 aylıq abunə haqqını ödəyən abunəçilərə isə internet ruter və TV Box abunəlik dövrü ərzində istifadəyə pulsuz verilir. Bu aydan start verilmiş kampaniya ilin sonunadək davam edəcək.

Şirkət tərəfindən abunəçilərə əlverişli tarif planları təqdim olunur. İlkin 36 mbit/s internet tarif planı 18 AZN, İnternet + IPTV üzrə ilkin tarif planı (40 mbit/s + 240 rəqəmal TV kanal) isə 29 AZN təşkil edir.

Hazırda "CityNet" internet provayderi Bakı şəhərində FTTB (Fiber to the Building - Binaya qədər fiber-optik) texnologiyası əsasında yüksək sürətli sabit internet və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidməti göstərir.

Qabaqcıl fiber-optik texnologiyaya əsaslanan dayanıqlı, şaxələnmiş şəbəkəsi ilə şirkət Bakı şəhərinin böyük hissəsini əhatə edir. Quraşdırılma xidməti abunəçilərə 24 saat ərzində təqdim edilir. Xidmətin hər hansı ünvanda mövcudluğunu şirkətin veb saytından da yoxlamaq mümkündür.

Qoşulma şərtləri, yeni kampaniyalar, həmçinin texniki dəstək üçün *1177 və (012) 5377777 nömrələri ilə əlaqə saxlamaq kifayət edir. "CityNet" provayderinin xidmətlərinə qoşulmaq üçün sadəcə zəng mərkəzinə zəng edib sifariş vermək kifayətdir. Şirkət haqqında daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytından əldə etmək olar.

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

## TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.09.2021-ci il tarixli, 12958-42585/21-15-19 saylı sifarişi ilə, Dövlət Vergi Xidmətinin Lokal Gəlirlər Baş İdarəsi tərəfindən Nərimanov rayonu, M.Nərimanov küçəsi, ev 4 ünvanında yerləşən (1 ədəd) universal frez dəzgah Rusiya istehsalı, (1 ədəd) koordinat yonma dəzgah Rusiya istehsalı, (1 ədəd) iki dirsəkli koordinat dəzgah Almaniya istehsalı, (2 ədəd) radial oyma dəzgah Almaniya istehsalı, 2 ədəd (şaquli oyma dəzgah Rusiya istehsalı, (1 ədəd) panellərin hazırlanması üçün Macar xətti Macarıstan istehsalı, (1 ədəd) qapıların hazırlanması üçün Macar xətti Macarıstan istehsalı, (1 ədəd) polimer örtük sexi (kimyəvi təmizləmə və rəngləmə xətti) Macarıstan istehsalı, 20 ədəd "Çinar" markalı soyuduculara dair 15 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avadanlıqlar ilkin satış qiyməti olan ümumilikdə 209.850 (iki yüz doqquz min səkkiz yüz əlli) manatdan 10% aşağı, yəni 188.865 (yüz səksən səkkiz min səkkiz yüz altmış beş) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 27 sentyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni ümumilikdə 18.886 (on səkkiz min səkkiz yüz səksən altı) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla
(Əlavə olaraq "Qeyd"ə bax).

-----------------------------------------------

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 31.08.2021-ci il tarixli, 12825114013/18-15-12 saylı sifarişi ilə, Şamaxı rayonu, Çuxuryurd kəndində yerləşən 0.12 ha torpaq sahəsinə dair 15 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi ilkin satış qiyməti olan 12.000 (on iki min) manatdan 10% aşağı, yəni 10.800 (on min səkkiz yüz0) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 27 sentyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 540 (beş yüz qırx) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla
(Əlavə olaraq "Qeyd"ə bax).

---------------------------------------------------

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.09.2021-ci il tarixli, 12957-63360/20-15-19 saylı sifarişi ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən siyahıya alınmış, Bakı şəhəri, Nərimanov rayonu, Əliəşrəf Əlizadə küçəsi, ev 36 ünvanında, tikintisi başa çatmamış 16 mərtəbəli binanın 3-cü mərtəbədə yerləşən, 3 (üç) otaqdan, 210 kv.metrdən ibarət olan mənzilə dair 15 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin mənzil ilkin satış qiyməti olan 220.500 (iki yüz iyirmi min beş yüz) manatdan 10% aşağı, yəni 198.450 (yüz doxsan səkkiz min dörd yüz əlli) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 27 sentyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 9.922 (doqquz min doqquz yüz iyirmi iki) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla
*(Əlavə olaraq "Qeyd"ə bax).*

---------------------------------------------

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

**4)** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

*Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC*

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1709



## Uşaqlara Məhəmməd adının verilməsini qadağan edəcək

### Fransanın prezidentliyə namizədi seçilərsə müsəlmanlara qənim kəsiləcək

**Gələn il Fransada prezident seçkisi keçiriləcək. Seçki yaxınlaşdıqca siyasi dairələrin də fəallığı artmaqdadır. Hazırkı Prezident Emanuel Makrona qarşı mövqeyi ilə seçilən namizədlərdən biri də Erik Zemmurdur.**

"Şərq" qəzeti Türkiyənin "milliyet.com.tr" saytına istinadən xəbər verir ki, islam əleyhinə kəskin çıxışları ilə gündəmə gələn Erik Zemmur prezident seçiləcəyi təqdirdə müsəlmanların yeni doğulan uşaqlarına Məhəmməd adının verilməsini qadağan edəcək. O, müsəlmanlar üçün başqa məhdudlaşdırıcı tədbirlər haqda düşündüyünü də bəyan edib. Zemmur həm də qatı irqçi, miqrant düşməni kimi tanınır. Şovinizm və dini təxribat səbəbindən bir neçə dəfə məhkumluq həyatı yaşayıb. Kifayət qədər dəstəkçisi olsa da, ölkə ictimaiyyəti və siyasi dairələrdə qəbuledilməz şəxs kimi dəyərləndirilir.

**İsmayıl**

## Ölkənin tarixində ilk yaşandı

### Döyüş təyyarələri magistral yola eniş edib



**Tayvana aid döyüş təyyarələri magistral yolda təcili eniş və qalxma təlimi keçirib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, ölkə tarixində ilk dəfə olaraq belə işıqforlu və kəsişməli bir magistral yolda təlim baş tutub. Tayvan ordusundan verilən açıqlamada bildirilib ki, pilotlar Pinqtunq Hava Bazasında hava zolağının düşmən qüvvələri tərəfindən ciddi şəkildə zədələnməsi halında 24 metr enində yola enmə qabiliyyətlərini sınayıblar. Açıqlamada, belə bir təlimin ilk dəfə işıqforlu və kəsişməli bir magistral yolda edildiyi qeyd olunub. Xatırladaq ki, avqust ayının 17-də Çinin keçirdiyi hərbi təlimlər iki ölkə arasındakı gərginliyi yenidən artırıb. Avqustun 28-də isə ABŞ döyüş və sahil mühafizə gəmilərinin Tayvan boğazından keçməsi Çin tərəfini qəzəbləndirib. Çin ABŞ gəmilərinin Tayvan boğazından keçməsini təxribat xarakterli bir hərəkət olduğunu deyib. Tayvan isə Çinin 19 hərbi təyyarə ilə onun hava sahəsinə girməsini sərt şəkildə tənqid edb.

**Aynurə**



# Səbət balı

### Kül və heyvan gübrəsiylə suvaq çəkirlər



**Məlahət Rzayeva**





**Türkiyənin Ədirnə və Trakya bölgələrində arıçılar qədim ənənələrlə bal yetişdirir. Bu üsul bal şanısının həsir səbətlərdə toplanmasıdır. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, Ədirnənin Süloğlu əyalətində yaşayan 30 yaşlı Uğur Boz bu qədim ənənə ilə bal yetişdirir. Bununla həm unudulmaqda olan ənənəni yaşadır, həm də yüksək keyfiyyətli bal əldə edir.**

Uğur Boz yerli mətbuata açıqlamasında bu üsulu nənəsindən öyrəndiyini deyib: "Biz uşaqlıqdan arıçılığın əhatəsindəyik. Səbət balı üsulunu bizə atamın anası öyrətdi, səbət balını necə yetişdirəcəyimizi başa saldı. Evimizin yanında "arılı bağça" adlı yer vardı, orada babam, nənəm səbət balı yetişdirirdi. Biz də həm müasir üsullarla, həm də babamdan, nənəmdən qalan üsulla yetişdirməkdə davam edirik. Bu üsul sərfəlidir, həm də asandır. Səbətlər söyüd budaqlarından hörülür, bəlli bir müddət günəş altda qurudulur, sonra kül və heyvan gübrəsiylə suvanır, suvaq da yaxşıca quruduqdan sonra artıq hər tərəfi qapanmış səbətin içərisinə arılar yerləşdirilir. Bu səbətlərdə arılar qışın soyuğundan, yayın istisindən qorunur. Səbətin içindəki arılara bal yetişdirmələri üçün heç bir qida verilmir. Arılar özləri pətək hörür, pətəkləri balla doldururlar. Ola bilsin, səbət balı daha azdır, amma keyfiyyəti yüksəkdir, ətri də fərqlidir, dadı da əladır. Səbətlərə kənardan heç bir müdaxilə edilmir. Bütün işləri arılar özləri görür. Biz sadəcə, sentyabr ayında bal çıxarırıq" deyən Uğur Boz bu qədim ənənə itməsin deyə. Ədirnə Xalq Tədris Mərkəzində gənclərə səbət balının yetişdirilməsini əyrəntdiklərini də söyləyib.

## Festival böyük reaksiya yaradıb

### 1428 delfin və balina öldürülüb



**Danimarkanın muxtar əyaləti olan Farer adalarında hər il keçirilən "Grindadrap" festivalı böyük reaksiyalara səbəb olub. Festivalda 1500-cü illərdən bəri delfin və balina ovçuluğu ənənəsi davam etdirilir.**

"Şərq" "Haberglobal.com"a istinadən bildirir ki, festival zamanı 1428 delfin və balina öldürülüb.

Bu il öldürülən balina və delfinlərin sayı ənənənin başladığı gündən bu yana çox yüksəkdir. Festivalda lentə alınan görüntülərdə ovdan sonra onlarla ölü delfin sahil xətti boyunca düzülüb və əksəriyyəti ağır yaralanıb. Balıqçılar ənənəni davam etdirmək üçün əsasən pilot balinaları, darboğaz və ağ başlı delfinləri ovlayıblar.

**Yeganə**

## İstintaq davam edir

### Qızıl tualeti oğurlayan hələ tapılmayıb



**İki il əvvəl İngiltərədəki "Blenheim" sarayından oğurlanan qızıl tualetlə bağlı istintaq hələ də davam edir.**

"Şərq" "Ntv.com"a istinadən bildirir ki, tualet tamamilə qızıldan hazırlanıb. "Amerika" adlanan 6 milyon dollarlıq tualetin oğurlanması ilə əlaqədar heç kim saxlanılmasa da, polis qızıl tualetin artıq əridilmiş ola biləcəyini düşünür. 18-ci əsrin möhtəşəm sarayına girən bir dəstə tualeti söküb. Binadakı tualetin kafel döşəməsi zədələndiyindən sarayda su basması meydana gəlib.

**Yeganə**



# İnternetin sürətinə görə Azərbaycan 25 pillə geriləyib

### Osman Gündüz: "Ölkəmizin əldə etdiyi nəticə potensial imkanlarımız baxımından xoşagələn bir göstərici deyil"

**Böyük Britaniyanın "Cable.co.uk" agentliyi yüksək sürətli internetlə bağlı dünya ölkələri üzrə statistikanı açıqlayıb. Qlobal İnternet Sürət Cədvəli 30 iyun 2021-ci il tarixinədək 224 ölkəni əhatə edən 12 ay ərzində 1,1 milyarddan çox sürət testi əsasında tərtib edilib. Cari ilin reytinq cədvəlində Azərbaycan 167-ci yerdə qərarlaşıb. Reytinq cədvəlinə görə, Azərbaycanda internetin orta sürəti 6,63 Mbit/s olub. Nəticədə Azərbaycanın mövqeyi əvvəlki siyahı ilə müqayisədə 25 pillə geriləyib.**

Belə ki, 2019-cu ildə bu qurumun reytinq cədvəlində Azərbaycan 208 ölkə arasında 142-ci yerdə, 2018-ci ildə 135-ci yerdə, 2017-ci ildə isə 102-ci yerdə olub. "Cable"ın reytinq cədvəllərinə əsasən, son illər Azərbaycanda internetin sürəti zəifləyib.

Azərbaycan İnternet Forumunun prezident Osman Gündüz "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanın əldə etdiyi nəticə potensial imkanlarımız baxımından xoşagələn bir göstərici deyil. Ekspert qeyd edib ki, reytinq cədvəlinə görə bu göstərici qonşu ölkələr içərisində də yetərincə aşağı nəticədir: "Düşünmək olar ki, ölkənin əsas provayderləri olan "Baktelekom" və "Aztelekom" dövlət provayderlərinin böyük əksəriyyət müştərilərinin 1-2 Mbit/s internet xidməti əldə etməsi də bu cür nəticə üçün əsas olub. 2021-ci ildə dünya üzrə orta sürət təxminən 30 Mb/san olub. Ölkələr arasında ən yüksək sürət 270 Mbit/s, ən aşağı sürət 0.5 Mbit/s olub. Xatırlayıram ki, 2019-cu ildə bu qurumun reytinq cədvəlində Azərbaycan 208 ölkə arasında 142-ci yeri tutmuşdu. 2018-ci ildə 135-ci yerdə, 2017-ci ildə 102-ci yerdə olub. "Cable"nin reytinq cədvəllərinə görə, son illərdə Azərbaycan internetin sürətinə görə xeyli geriləyib. Son illərdə sektorda inhisarçılığın yüksək həddə olması, özəllər üçün dövlətə məxsus kabel-kanal infrastrukturundan istifadədə ciddi problemlərin olması, ölkə üzrə keyfiyyətli internet probleminin həllini ötən illərdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) yalnız öz üzərinə götürməsi doğru yanaşma deyildi və bu da öz nəticəsini artıq göstərməkdədir".

*O.Gündüz qeyd edib ki, genişzolaqlı internetə əlçatımlığı artırmaq və internetin keyfiyyətini yaxşılaşdırmaq istiqamətində NRYTN-in yeni rəhbərliyi tərəfindən hazırda dövlət və özəl provayderlərin birgə əməkdaşlığını nəzərdə tutan "dövlət-özəl tərəfdaşlığı" təşəbbüsü irəli sürülüb:* "Bakıətrafı və regionların kəndlərində, yaxın 1-2 il ərzində genişzolaqlı internetin inkişafı üçün adıçəkilən təşəbbüs çərçivəsində tədbirlərə başlanıb. Hazırda Bakı ətrafında və regionlarda bu təşəbbüs çərçivəsində GPON və LTE texnologiyaları ilə evlərə internet xətlərinin çəkilişinə start verilib. Azərbaycanda keyfiyyətli internet probleminin olması dövlət başçısı səviyyəsində də vurğulanıb. Son illərin qlobal çağırışları, COVİD-19 pandemiyası da internetin, rəqəmsal sektorun inkişafını xeyli stimullaşdırıb. Ümid edirəm yaxın zamanlarda yaradılması nəzərdə tutulan Müstəqil Tənzimləyici qurumun formalaşması da sektorda ciddi canlanma yaradacaq, rəqabətli mühiti inkişaf etdirəcək. İnanıram ki, nazirlik özəl provayderlər üçün münbit şərait yaratmaqla, dövlət-özəl tərəfdaşlığını özəllər üçün cəlbedici və əlçatan etməklə, magistral infrastrukturun qurulmasına yetərincə investisiya ayırmaqla, bütün ölkə üzrə keyfiyyətli internet problemini yaxın bir-iki ildə tam həll edə biləcək".

**Aynurə Pənahqızı**



## Təzqiyi 3 dəfə ölçmək lazımdır

### Həkim düzgün ölçmə qaydasını söylədi



**Arterial təzyiqi çoxları, hətta həkimlər də səhv ölçür.**

Medicina.az xəbər verir ki, rusiyalı həkim özünün "50 ildən daha çox necə yaşamalı" kitabında insanların orta yaşda ölümünə səbəb olan ürək-damar problemlərindən yazıb. Bu xəstələrin hər gün təzyiqinin ölçməsi onlar üçün ölüm-dirim məsələsidir. Buna tənbəllik etmək olmaz. Hər gün 2-3 dəfə təzyiq ölçülməli və bir dəftərə qeyd edilməlidir. Həftələrlə təzyiqindən xəbərsiz olan xəstəyə həkimlər də düzgün diaqnoz təyin edə bilmir.

Bəs arterial təzyiqi düzgün ölçmək üçün nə etməli?

- Təzyiq oturaq vəziyyətdə, sakit halda 3 dəfə ölçülməlidir. Hər şey hazırlanır, xəstə 5 dəqiqə oturub təzyiqini ölçür.
- Sonra 5 dəqiqə keçir, yenidən təzyiqini ölçür.
- Yenidən 5 dəqiqə dincəlib, prosedur təkrarlanır. Yalnız bu halda göstərilən rəqəmlərdən nəticə çıxarmaq olar.
- Həftədə ən azı 3 dəfə hər iki qolda təzyiq ölçülməldir. Qollar arasında təzyiq fərqi ciddi damar problemindən xəbər verir və önəmlidir.

Hansı aparatlar effektivsizdir.

Biləyə taxılan mini qolbaq kimi təzyiq ölçənlər mütəxəssislər tərəfindən dəqiq hesab edilmir, belə cihazları almayın.

Mexaniki, yəni klassik qola taxılan və əllə sıxılan manşetli aparatlar daha etibarlıdır.

Əgər sizdə elektron aparatdırsa, tanınmış firmalardan alın. Və bu aparatla təzyiqi bir dəfə ölçüb, əmin olmayıb. Bu cihazla da təzyiq azı 3-4 dəfə ölçülüb, təxmini ortaq rəqəm çıxarılmalıdır.